# Azərbaycan Respublikası Təhsil Nazirliyi

**“Azərbaycan Respublikasında bankların müasir vəziyyəti və inkişaf istiqamətləri”**

## Diplom İşi

Tələbə : İsmayıl Əzimov

UNEC SABAH
Azərbaycan Dövlət İqtisad Universtiteti

2018

# MÜNDƏRİCAT

**Giriş** .......... 3

**FƏSİL I. MILLI IQTISADIYYATIN INKIŞAFINDA BANK SEKTORUNUN ROLU VƏ ƏHƏMIYYƏTI** .......... 8

1.1. Bankın iqtisadi mahiyyəti və bank işinin əhəmiyyəti .......... 8

1.2. Bankların növləri və onların iqtisadiyyatda rolu və funksiyaları .......... 13

1.3 Azərbaycan Respublikasında bank sisteminin hüquqi əsasları .......... 17

**FƏSİL II. AZƏRBAYCAN RESPUBLIKASINDA BANKLARIN MÜASIR VƏZIYYƏTININ TƏHLILI VƏ PERSPEKTIV INKIŞAF ISTIQAMƏTLƏRI** .......... 31

2.1. Mərkəzi və Kommersiya banklarının fəaliyyətinin əsas istiqamətləri və onlar arasında qarşılıqlı əlaqənin təhlili .......... 31

2.2. Azərbaycan Respublikasında manatın devalvasiyasının bank sektoruna təsirinin təhlili. .......... 34

2.3. Azərbaycan Respublikasında bank sektorunun müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi. .......... 40

2.4. Azərbaycan Respublikasında bank sektorunun perspektiv inkişaf istiqamətləri .......... 44

**NƏTİCƏ** .......... 53

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** .......... 56

# Giriş

**Mövzunun aktuallığı.** Müasir dövrdə Respublikamızın beynəlxalq iqtisadi təşkilatlara inteqrasiyası, azad bazar iqtisadiyyatının inkişafı, ölkəyə xarici kapital axını, yeni müəssisə və təşkilatların fəaliyyətə başlaması bu proseslərin effektiv hüquqi nizamlanmasını və yeni tənzimetmə mexanizmlərinin işlənib hazırlanması zərurətini meydana çıxarmışdır. Qeyd edilən məsələlərin həllində beynəlxalq hüquq normaları və inkişaf etmiş dövlətlərin müsbət təcrübəsindən yararlanmaq, eyni zamanda həmin təcrübənin dövlətdaxili qanunvericiliyə implementasiyası aktual məsələ hesab olunur.

Müasir dövrdə dünya iqtisadiyyatında baş vermiş qlobal dəyişikliklər hər bir sivil dövlətin apancı sektoru olan bank sektoruna da təsirsiz ötüşməmişdir. 2008-2009-cu illərin dünya iqtisadi böhranı və hazırda dünya iqtisadiyyatında gedən dəyişikliklər, xüsusilə də irimiqyaslı regional neft-qaz layihələrinin işə düşməsi, dönərli valyutaların məzənnələrindəki ciddi dəyişikliklər Azərbaycan Respublikasının (AR) iqtisadi həyatında, konkret olaraq bank sektorunun inkişaf tempində yeni yanaşmaların, tendensiyaların tətbiqi zərurətini meydana çıxarmışdır. Bütövlükdə, effektiv fəaliyyət gösterən bank sektoruna, müasir tələblərə cavab verən maliyyə-kredit sisteminə və sərbəst rəqabətə əsaslanan bazar münasibətlərinin inkişafı həm dövlətdaxili iqtisadi inkişafa, həm də xarici iqtisadi əlaqələrin inkişafına zəmin yaradır. Bütün bunlar bank fəaliyyəti sferasında beynəlxalq hüquq münasibətlərini tənzim edən beynəlxalq bank hüququ konsepsiyasım irəli sürməyə imkan verir, ona görə də, ölkəmizin hazırkı qlobal dəyişikliklər fonunda milli bank sektorunun bu günü və gələcəyinin düzgün müəyyən edilməsi baxımından bank fəaliyyətini tənzimləyən beynəlxalq hüquq normalarının hüquqi əsaslarının ətraflı şəkildə tədqiqi aktualdır. Beynəlxalq bank hüququ bankların beynəlxalq fəaliyyəti və ya beynəlxalq bankçılığın inkişafı nəticəsində formalaşmışdır. Ticarətin qlobal xarakteri, elmi-texniki nailiyyətlər beynəlxalq bankçılığın yaranması və inkişafina bilavasitə təsir göstərmişdir. Müasir bank sektorunda və ümumilikdə

ölkənin iqtisadi həyatında aktual problemlərdən biri də ödənişlərin nağdsız qaydada həyata keçirilməsi ilə bağlıdır. Hesab edirik ki, qeyd edilən problemin həllində də xarici təcrübənin tətbiqi məqsədəuyğun hesab edilir. AR-də ödəniş infrastrukturunun yaradılmasına baxmayaraq nağdsız ödənişlərin səviyyəsi elə də yüksək deyildir. Fikrİmizcə, beynəlxalq praktikada olduğu kimi bir sıra məsələlərin nəzərə alınması və qanunvericiliyə daxil edilməsi xüsusi aktuallıq kəsb edir. Bunlara qanunvericilikdə stimullaşdırıcı tədbirlərə üstünlük verilməsi, plastik kartlarla aparılan əməliyyatlara tətbiq edilən vergilərdə dəyişikliklər etmək, nağdsız ödəniş alətlərinin ölkəyə idxalı ilə əlaqədar olaraq bir sıra vergi və rüsumlardan azadolmalar, plastik kartlarla ödənişlərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, ilk növbədə konfidensiallığm qorunub saxlanması, infrastruktur imkanlarının genişləndirilməsi, beynəlxalq təcrübədə istifadə edilən bütün alətlərin ölkədə tətbiqi üçün müvafiq təkliflər, nağd puldan istifadəyə məhdudiyyətlər daxildir.

Digər vacib bir məsələ əhalinin maliyyə savadlılığının artırılmasına, maarifləndirilməsinə yönəlmiş tədbirlərin azlığı ilə bağlıdır. Bu istiqamətdə Almaniya və Fransa kimi ölkələrin təcrübəsinə müraciət etmək olar.

Mövzunu aktuallaşdıran məsələlərdən biri də, hətta müasir dövrdə belə Respublikamızda gündəmdə olan problemlər arasında qalan ipoteka kreditləşməsi ilə bağlıdır. Ölkəmizdə bu sferada infrastruktur və qanunvericilik bazası var, hətta ayrıca qanunvericilik aktı da qəbul edilmişdir (2005-ci il tarixli İpoteka haqqında Qanun), lakin mövcud problemlər öz həllini tam şəkildə tapmamışdır. Belə ki, təyinatı əhalini yaşayış sahələri (ev, mənzil) ilə təmin etmək olan bu kredit növündən kütləvi şəkildə yararlanmaq olmur. Həmçinin kreditin götürülməsi zamanı sənədləşmə, prosedur qaydalar, texniki problemlər və digər maneələr meydana çıxır. AR-də son illərin (2012-2016) kredit vermə təcrübəsi göstərir ki, banklar ipoteka kreditlərinin verilməsində maraqlı deyildir. Bunun bir çox səbəbləri var ki, onlardan biri bu növ kreditlərin uzun müddətə (adətən 20 il) verilməsi və aşağı faizlə (4 və 8%)

verilməsi ilə bağlıdır. Kommersiya bankları qısa müddətli (adətən 2 illik), yuxarı faizlə (adətən 30-34 %) və yüksək komisyon haqqı (2-5 %) müqabilində verilən kreditlərdən daha çox gəlir əldə etdiyindən ipoteka kreditlərində maraqlı deyillər. Bizim fıkrimizcə, əhalinin və bank sektorunun maraqlan nəzərə alınmaq şərtilə mövcud vəziyyətdən çıxış yolları təklif edilməlidir.

**Buraxılış işinin məqsəd və vəzifələri.** Buraxılış işinin məqsədi bank işi anlayışı, predmeti, tənzimetmə obyekti və subyektlərin müəyyən olunması, bank fəaliyyətini tənzimləyən normaların unifikasiyası, bank işinin tənzimlənməsinin universal, regional və dövlətdaxili aspektləri, bank hüququnun əsas institutlar sisteminin dövlətdaxili qanunvericiliklə müqayisəli şəkildə təhlili, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və İtaliya kimi inkişaf etmiş və hərtərəfli bank fəaliyyəti praktikasına malik ölkələrin bank sisteminin inkişaf tarixinə və müasir vəziyyətinə nəzər yetirilməsi, kommersiya bankları və Mərkəzi Bank arasında yaranan münasibətlərdə çatışmayan cəhətlərin üzə çıxarılması və aradan qaldırılması yollarının müəyyən edilməsidir.

**Buraxılış işinin obyekti** qismində müasir beynəlxalq rəqabət şəraitində bank fəaliyyətinin tənzimlənməsi, xüsusilə də qlobal iqtisadi dəyişikliklərdən, dünya iqtisadi böhranından sonra milli bank sistemlərinin fəaliyyət imkanlarının qorunması, bank fəaliyyətini tənzimləyən universal və regional xarakterli beynəlxalq-hüquqi normalar, eyni zamanda, Amerika və Avropa ölkələrinin bank sistemlərinin beynəlxalq bank fəaliyyətinə təsiri və ölkəmizin bank qanunvericiliyinin inkişafında beynəlxalq normalarının rolu, bank işi sahəsinin təkmilləşdirilməsi ilə bağlı məsələlər çıxış edir.

**Buraxılış işinin nəzəri və metodoloji əsasları.** Buraxılış işinin metodoloji tərkibini dialektikanın kateqoriya və prinsipləri, həmçinin iqtisadiyyat elmində hamı tərəfindən qəbul edilmiş ümumnəzəri və xüsusi olan elmi metodlar təşkil edir. Bu işdə formal-məntiqi metoddan, müqayisəli metoddan və tarixi metoddan, sistemli analiz metodundan daha çox istifadə

edilmişdir. Bundan başqa buraxılış işində konkret-sosioloji və digər elmi metodlar da tətbiq edilmişdir.

Buraxılış işinin nəzəri əsası kimi Azərbaycan və xarici ölkə tədqiqatçılarının müvafiq sahədə fundamental əsərlərindən istifadə olunmuşdur. Bu işdə bank işi, dünya iqtisadiyyatı və beynəlxalq hüquq sferasında tədqiqat aparan bir sıra yerli alimlərin - A.Ə.Əliyev, A,Ş.Şəkərəliyev, Ə.İ.Əliyev, Ə,I.Sadıqov, Ə.M.Abbasov, Ə.Q.Məmmədov, O.F.Əfəndiyev, E.M.Sadıqov, R.V.Əsgərova, R.A.Bəşirov, V.Z.Zeynalov, F.Ş.Kaşiyeva, Z.F.Məmmədov, L.H.Hüseynov; əcnəbi alimlərdən, ilk növbədə, rus ailmlərindən Q.A.Avanesova, V.A.Belov, P.N.Biryukov, V.V.Vitryanskiy, A.A.Vişnevskiy, L.X.Yefimova, E.F,Jukov, T.P.Lazareva, K.D.Lubençenko, T.N.NeşatayeVa, L.A.Novoselova, O.M.Oleynik, N.V.Sapojnikov, N.B.Topornin, A.A.Feldman, İ.O.Xlestova, A,M.Erdelevskiy, Qərbi Avropa və Amerikan alimlərindən L.Nikolas, J.A.Kelusak, M.Lyuis, K.T.Devis, İ f.Uolker, A.V.Mullineuks.,V.Murinde, K.Suk-Jonq, M.D.MakKenzi, C.Felsenfeld və başqalarınm əsərlərindən müqayisəli şəkildə istifadə edilmişdir.

**Buraxılış işinin informasiya bazası**nı bank fəaliyyətinin müxtəlif sferalarını araşdıran saziş və konvensiyalar, bank işinin tənzimlənməsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların (əsasən də, Bazel Komitəsi, Beynəlxalq Ticarət Palatası) qərar və tövsiyələri, bank fəaliyyəti sahəsində qabaqcıl ölkələrin dövlətdaxili qanunvericilik aktları və bank işi sferasında dövlətimizin həyata keçirdiyi inkişafımızın təminedicisi olan qanunlar təşkil edir.;

**Buraxılış işinin praktiki əhəmiyyəti.** Mərkəzi Bank və kommersiya bankları haqqında biliklərin sistemləşdirilməsi, genişləndirilməsi və dərinləşdirilməsi ilə bağlıdır. Müəllif müvafiq sferada qanunvericilik bazasının təkmilləşdirilməsini, Mərkəzi Bankın kommersiya banklarını tənzimləyən ayrıca qanunvericilik aktının qəbul edilməsini təklif edir. Qeyd edilənləri

nəzərə alaraq, buraxılış işindən bank işi, bankların beynəlxalq əməliyyatlarının hüquqi tənzimlənməsi, maliyyə kurslarının işlənib hazırlanmasında və ali təhsil müəssisələrində tədris olunmasında da istifadə oluna bilər.

**İşin quruluşu və həcmi**. İş giriş, iki fəsil, nəticə və istifadə edilən ədəbiyyatın biblioqrafik siyahısından ibarətdir.

# FƏSİL I. MİLLİ İQTİSADİYYATIN İNKİŞAFİNDA BANK SEKTORUNUN ROLU VƏ ƏHƏMİYYƏTİ

## 1.1. Bankın iqtisadi mahiyyəti və bank işinin əhəmiyyəti

Hazırda banklar iqtisadi həyatda çox önəmli funksiyalar həyata keçirməklə bərabər, müasir iqtisadi sistemin ayrılmaz bir hissəsi olan təşkilatlardır. İqtisadi fəaliyyətlərin inkişafı və şaxələnməsi bankların da çoxalmasına və ixtisaslaşmasına səbəb olmuşdur. Banklar yalnız xalqın əmanətlərini kreditə ehtiyacı olanlara verərək pulun passiv olmasının qarşısını almaqla qalmaz, pul yaratmaqla iqtisadi fəaliyyətlərin hərəkətə gəlməsinə səbəb olurlar. Bu baxımdan banklar təsadüfi kommersiya təşkilatları deyil, dövlət xidməti görən və bu xidmətləri ilə iqtisadi fəaliyyətə əhəmiyyətli dərəcədə təsir edən təşkilatlardır.

Banklar verdikləri kreditlər və etdikləri investisiyalardan əldə edəcəkləri gəliri verdikləri kreditinin və etdikləri investisiya qoyuluşunun təhlükəsiz olması ilə tarazlaşdırmaq məcburiyyətindədirlər. Bank sektorunda idarə edilməsi lazım olan risk yalnız faiz riski deyil.

Banklar valyuta məzənnəsi riski, alacaq riski, likvidlik riski kimi gəlirliliyə əks istiqamətdə təsir edən digər risklərin rəhbərliyinə də diqqət yetirmək məcburiyyətindədirlər. Bu səbəblə bank risk idarə etmə sənəti kimi də təsvir oluna bilər. Banklar əhalinin əmanətlərini əmanət şəklində qəbul edərək bunları ehtiyacı olanlara kredit olaraq köçürən və ya plasman edən ödənişlərdə vasitəçilik edən sənədişləmə, əmanət qəbulu kimi müxtəlif xidmətlər görən kommersiya təşkilatlardır. Banklar təminat üzərinə pul ticarəti edən təşkilatlardır.

Maliyyə bazarları, qənaət etmiş və artıq şəkildə əlində pul saxlayan şəxslərin və qurumların əllərində olan fondları, əmanət açığı olanların istifadəsi üçün təqdim etmiş olmalarına vasitəçilikdə olan bazarlar olaraq tanınır.

Qənaət edənlər, əldə etmiş olduqları, yaxud əldə etməyi ümid etmiş olduqları gəlirlər qarşısında bu fondları təhvil verməyi düşünürlər. Digər bir tərəfdən, firmalar da bugünkü fondlarından artığını istifadə etməklə yaradacaqları gəlir yüksəlməsini bir qismi qarşılığında ödəniş həyata keçirərək, başqalarına aid fondları istifadə etmək hissiyatı güdürlər. Bu səbəbdəndir ki maliyyə bazarlarında asılı funksiya, təklif və tələb arasında vasitəçilik funksiyasını yerinə yetirməkdir. Ümumiyyətlə maliyyə fondlarının dövrü, veksel, çek, səhmlər, kimi qiymətli sənədlərin əl dəyişdirməsi nəticəsində baş verir. Bu baxımdan maliyyə bazarları, maliyyə varlıqlarının və qiymətli sənədlərin alınıb satıldığı bazarlar şəklində də izah edə bilərik.

Maliyyə bazarlarında əsas funksiya, fondların, tələb edənlərə doğru təklif edənlərdən axınını təmin etmək, daşınan dəyərlərə nağd pul axınını təmin etmək və daşınan dəyərlərin qiymətini əmələ gətirmək şəklində ümumiləşdirilə bilər. Amma iqtisadi baxımdan da maliyyə bazarları firmalara vəsait ayrılması kimi mühüm bir vəzifəni yerinə yetirirlər.

Pul bazarlarının əsas vasitə qurumu kommersiya banklardır. Banklar, yığım edənlərdən və firmalardan topladıqları kommersiya əmanətlərə əsaslanaraq qısa müddətli kreditlər açırlar. Bu səbəbdəndir ki, kredit mənbəyini təşkil etməkdə olanlar fond sahibləri ilə krediti sahələr arasında birbaşa əlaqə əsas deyildir. Valyuta bazarlarında əsas vasitəçi qurum olan banklarla yanaşı maliyyə lizinq şirkətləri və sığorta təşkilatları da fəaliyyət göstərirlər [7, s. 9].

Bank sektoru üçün müasir dünyada maliyyə sistemindəki ən vacib strukturu təşkil edən qurumlardan biri olduğu deyilə bilər. Bank, sələmlə pul götürüb, pul verən, kredit əməliyyatları uçotu, pul dəyərli sənədlərin təhlükəsizliyini təmin edən və bunun xaricində iqtisadi fəaliyyət göstərən müəssisə və təşkilatlara bank deyilir.

"Bankların əsas funksiyası bir iqtisadiyyatdakı yığımları ehtiyacı olan təbəqələrə minimum xərclə ötürməkdir".

Banklara çox müxtəlif və əhəmiyyətli şəkildə funksiyalar yüklənmiş olduğu günümüz iqtisadi quruluşunda ayrılmaz bir təşkilat olan banklar iqtisadi fəaliyyətlərin sürətlənməsi və inkişafı eyni zamanda şaxələnməsi bankların ixtisaslaşmasına səbəb olmuşdur. Banklar yalnız xalqın əmanətləri ilə maraqlanmaz eyni zamanda da qeydiyyatı pul yaradaraq iqtisadi fəaliyyətin canlanmasında da mühüm rollar oynayırlar. Bu baxımdan baxıldığında banklar adi təşkilatlar olmayıb iqtisadi həyata çox lazımi şəkildə təsir edən təşkilatlardır.

Bank, pul və / və ya nağd pul yerinə keçəcək digər daşınan dəyərlər ilə iş edə bilən və bunun yanında həmçinin maliyyə xidmətləri də təqdim edən bir təşkilatdır. Əmanət alıb borc verən kredit alıb verən bu aradakı faiz fərqindən gəlir əldə edirlər. Banklar əsasən ticarət və mərkəz olmaq üzrə iki əsas kateqoriyaya ayrılırlar.

Əmanətləri toplayan cari hesabları tutan kommersiya bankları sərmayə qoymaq, qurum və şəxslərə maliyyə məsləhəti və maliyyə xidmətləri təqdim etmə funksiyalarını həyata keçirir.

Müştərilərinə verdikləri kreditlər üçün faiz gəliri əldə edən banklar yaratmış olduqları digər xidmətlər üçün də ödəniş alırlar. Ölkələr arasında maliyyə işləri həyata keçirən mərkəzi bankları pul-kredit siyasətini tənzimləmə və həyata keçirilməsi rolunu oynayır. Bunun yanında maliyyə böhranlar astanasında ikən bankların borc almaq üçün müraciət edə biləcəkləri bir qurum olaraq qarşımıza çıxır. Mərkəz bankları, bu əsas vəzifələri ilə yanaşı, maliyyə sistemi içərisində psixoloji rol oynayırlar. Funksiyaları etibarilə kommersiya banklar funksiya və funksiyalarını bankların yüksək riskə malik borc verməsi məqamını əngəlləyərək, banklara nəzarət edərək və nağd pul problemi yaşayan banklara borc verərək ifa edirlər. Mərkəz bankların da iqtisadi siyasətini

birbaşa təsir edən və valyuta məzənnələri üzərində təsiri olan təşkilatlar kimi ön plana çıxmışdır [13].

Banklar vermiş olduqları kreditlər və investisiyalarından əldə etmiş olduqları gəlirləri verdikləri kreditlərin etibarlı olması ilə tənzimləmək məcburiyyətindədir ki bankda idarə edilməsi lazım olan riskin yalnız faiz riski olmadığı nəzərə alınmalıdır. Banklar likvidlik riski, valyuta məzənnəsi riski kimi gəlirlilik nisbətlərinə əks istiqamətdə təsir göstərəcək bütün halları nəzərə alaraq risk idarəçiliyini həyata keçirmək məcburiyyətindədir. Bu səbəblə bank risk idarə etmə sənəti kimi təqdim etmək yanlış olmayacaq. Xalqın əmanətlərini əmanət şəklində qəbul edilərək ehtiyacı olanlara kredit şəklində verən ödənişlər məsələsində vasitəçilik əməliyyatlarını yerinə yetirən banklar etibar üzərində pul ticarəti edən qurumlardır.

Cədvəldə görüləcəyi üzrə bank sisteminin möhkəmləndirilmiş balansı görülür. Cədvəldə ki, birinci hissədə mərkəzi bankın balansı var. Mərkəzi bank aktivləri qızıl və valyuta ehtiyatları ilə daxili kredit və ya dəqiq xarici varlıqlar ilə dəqiq daxili varlıqlar olaraq iki müxtəlif kateqoriyadan ibarətdir. Cədvəldə Qızıl və valyuta ehtiyatları isə F ilə göstərilir. Mərkəzi bank bu istiqrazları satın alarkən maddi baza yaradır. Mərkəzi bankda istiqraz kolleksiyasına daxili kredit adı verilir. Mərkəzi bankın məsuliyyəti maddi bazadır. Kommersiya bankları sektorunda iki fəal yığınının arasında bir fərq var. Birinci olaraq kommersiya bankları nağd olaraq mədəni və kağız pul ilə mərkəz bankında əmanət olaraq ehtiyatları var. Bankların ehtiyat aktivləri $MB_B$ ilə göstərilir. Bankların vermiş olduqları daxili kreditlər isə $DC_B$ olaraq göstərilir. Kommersiya bankları məsuliyyətlərini əhali və müəssisələrin qoymuş olduqları əmanətlər təşkil edir.

**Cədvəl 1.**

**Bank Sisteminin Balansı**

| | | | | |
|---|---|---|---|---|
| **Mərkəz Bankı** | | | | |
| Aktivlər | | | Passivlər | |
| Qızıl və xarici | | Limit | | H |
| Ehtiyatlar | F | | | |
| Daxili Kreditlər | DCc | | | |
| **Kommersiya Bankları** | | | | |
| Aktivlər | | | Passivlər | |
| MB-də | | | | |
| Nağddan əlavə | | Fondlar | | D |
| (Qarşılıq olaraq tutulan) | MBb | | | |
| Daxili kreditlər | DCb | | | |
| **Ümumi bankçılıq sektoru** | | | | |
| Aktivlər | | | Passivlər | |
| Qızıl və pul | | | | |
| Rezervləri | F | | | |
| Daxili Kredit | DCc + DCb=DC | | | D |
| **Pul təklifi** | MBb | Pul təklifi | | M |

Mənbə: Pulsuz, İ, 2006, Makro İqtisadiyyat, Mahnı Nəşriyyatı, Bursa. S.534

Banklardaki əmanət yalnız bir dəfə bankların balansında görünür və ümumi balansda da birə-bir eyni şəkildə yer alır. Bank sistemindəki ümumi

öhdəlik kağız pul və əmanətlərdən ibarətdir. Bunların cəmi bizə tam olaraq pulun tərifini verməkdədir.

Əsasən banklar, bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir ki, bunlar arasında likvidlik, kapital kimi faktorları qeyd etmək olar, hansi ki bunların öhdəliklərini sataraq, başqa xarakteristikalara malik olan varlıqları satın alma yoluna gedərək gəlir əldə edə bilirlər. Bu proses tez-tez varlıq dəyişikliyinə dəlalət edir. Bir nəfər tanıdığı birinə bir ipoteka müqabilində borc pul vermək əvəzinə, pulunu bankdakı bir əmanət hesabına qoyar və banka da tanıdığına verəcəyi krediti təmin etmiş olar. Bu şəkildə də bank əmanətə keçən əmanəti nağda çevirmiş olar.

## 1.2. Bankların növləri və onların iqtisadiyyatda rolu və funksiyaları

Banklar üçün maliyyə vasitəçiləri ifadəsi də istifadə edilə bilər, bu gün bankların dövlətlər ilə, iqtisadçılar vasitəsi ilə mühüm bir mövqedə qiymətləndirilməsinin səbəblərində təqdim etmiş olduqları kreditləri izləyə bilmə məqamında da miqyas iqtisadiyyatlarından fayda təmin edərək yaratmış olduqları sosial faydaya; qısa dövrlü və nominal dəyərdən çevirən əmanətlərin münasibətilə nağd pul əldə edə bilmə gücünə; kredit və ödəmə sistemlərini bir-biriləri ilə əlaqələndirir.

Bankda maliyyə sektorunun içrisində ciddi bir çəkisi olduğuna görə, sistemin sağlam bir şəkildə fəaliyyətlərini davam etdirməsi üçün lazım olan siyasi amillər, bankların fəallığı, mənfəət əldə etməsi və sabitliyini davamlı şəkildə qoruması məsələlərində həssas bir şəkildə durmaqda, iqtisadi funksiyaları düzgün bir şəkildə həyata keçirə bilməsi üçün şəraitin uyğun formada qalması təmin edilməyə və qorunmağa çalışılır [14, s. 82].

Bu anda da rəqabət, pozitiv ilə mənfi nəticəylə sektoru təsir edən, digər bir taraftanda hazırda ki iqtisadi şərtlərdən uzaq dayanmaq, demək olar ki,

imkansız bir vəziyyət olaraq güman edilir. Günümüzdəki gərgin rəqabətin səbəb olduğu mənfi təsirlərin yox edilməsi məqsədilə müsbət təsirlərin artırılması içində sektordaki quruluşun düzgün bir şəkildə araşdırılması, rəqabətə yol açan məqamların müzakirə edilməsi, siyasət ortaya qoyanların sektor ilə bağlı gerçək bir davranışda olmaları baxımından vacibdir. Bankların təqdim etdikləri müddətsiz əmanət xidməti vasitəsilə şəxslərə və müəssisələrə istədikləri anda kredit vermə imkanı verilir. Bunun yanında nail olduqları kredit imkanları likvidliyin yerləşməsi barədə faydalar təmin edir. Dövlətdə bankların əmanətləri ilə bağlı məsuliyyətlərini həyata keçirməsinə inam, bank varlıqlarının keyfiyyət və maliyyə gücünə əsaslanır. Başqa qurumların etmədikləri hallarda belə bankların kredit və likvidlik təqdim etmə qabiliyyətləri mövcuddur. Buna səbəb kredit və likvidliyin elastikliyi rol oynayır.

Bütün sektorlarda olduğu kimi, bankda da göstərilən bazarın xüsusiyyətləri tutumunun irəlilədilməsi arasında bir bağ var. Buna görə də bir sahədə tutum təhlil edilərkən sənaye xüsusiyyətlərinin və bu xüsusiyyətlərin təhlildə, sənayenin keyfiyyətlərinin və bu keyfiyyətlərin meydana gəlməsinə səbəb olan irəliləyişləri də nəzərə almaq lazımdır.

Azərbaycanda bankçılıq sisteminə nəzər saldıqda 2000-ci illərin ilk illərinə qədər əhəmiyyətli bir dəyişiklik prosesi getmişdir. Bu dövrlərdə maliyyə cəhətdən sərbəstləşdirmə siyasətlərinin tətbiqi ilə faiz nisbətlərindəki əllərin qaldırılması ilə bazara giriş imkanı təmin olunmuşdur. Böyük hissəsi xarici kapitallı olmaq üzrə əmanət banklarının yanında inkişaf və investisiya banklarının sistemə girişi olmuşdur. Bank fəaliyyətini tənzimləyən Banklar Qanununda disponibilite, vergi kimi maliyyə məsuliyyətləri ilə bağlı olaraq çox vaxt tədbirlər həyata keçirilmişdir.

Bank sistemi müxtəlif sahələrdə fəaliyyət göstərən banklar birliyinin quruluşunu və bir-biriləri ilə olan əlaqələrini təsvir edir. Bəzən bəhs edilən bu sistem və əlaqə istəyə bağlı şəkildə dövlət müdaxiləsi olmadan var olur. Bəzi

zamanlarda dövlət qoymuş olduğu qanunlar vasitəsi ilə bir sistem qurur və müxtəlif banklar arasındakı münasibətə nizam gətirir.

Maliyyə tənzimləməsi nəticəsində, kapital bazarı ilə banklar arasında vasitəçilik funksiyasını yerinə yetirən bir çox qurum var. Bunun nəticəsindən də maliyyə bazarlarında dərinləşmə yaranır. Maliyyə sahəsində yaradılan fondların real sektora ötürülməsi nisbəti şəklində maliyyə dərinləşməsinin tanınması mümkündür.

Dərinləşmənin yüksək olması və iqtisadiyyatdaki böyümə miqdarında da artım olacağı mənasını daşıyır. Nisbətin azalması ilə dərinləşmə gücsüz olacaq və iqtisadiyyatda gözlənilən böyümə nisbəti aşağı səviyyələrə düşəcəkdir. Bunun yanında iqtisadiyyatda inkişafın olması üçün şübhəsiz ki, bir digər mühüm meyar da dərinləşmənin yanında davamlı sabitlikdir. Sabitliyin olmadığı iqtisadiyyatlarda investorlar uzun perspektivdə qazanacaqları miqdarı qənaətbəxş hesab etmədiklərindən müəyyən fondların real sektora təminatında çətinlik olur və istehsala dönüşündə problemlər yaşanır. Bu məqamda pul üzərində pul qazanılmasına səbəb olur.

Başqa sahələrdə olduğu kimi bank sistemindəki həddən artıq gücün səbəbləri bu şəkildədir.

- Məhsula olan tələbat zamana bağlı və ya struktur bir azalma
- Texnologiyadaki irəliləyişlər
- Firmalar arasında tələbin yer dəyişdirməsi
- Tam tutumla çalışılan hallarda bazara yeni müəssisələrin girişi
- Tənzimləmələr və yaxud iqtisadiyyatdakı proseslər
- Rəqabətin qiymət üzərindəki təsiri lazımi funksiya pozulması üçün alınan doğru olmayan investisiya qərarları və bunun yanında rəqabətə davamlı sənayedən fərq əmələ gəlməsi kimi səbəblər əlavə edilə bilər [11, s. 14].

Bank sektorunda həddindən artıq güc miqdarına bağlı olan araşdırmalarda adətən, bazarın strukturu nəzərə almayaraq sektorla bağlı

ümumi data və ya bankların data hərəkət edilərək çıxış sahələrinə baxılır. Bazar gücü saçılımının dəyişiklik göstərmədiyi müddətdə bankların gəlirlilik səviyyələrində ki, dəyişmələr çox tutum indikatoru kimi qiymətləndirilir. Nisbətən kiçik olan bankların monopolist gücə tabe olduğu, böyüklərin isə sərt rəqabətin hasil olduğu bazarlarda bu meyar istifadə edilə bilər.

Ölkəmizdə firmalar baxımından maliyyə və bank sistemlərinə alternativ olaraq fərqli bir sıra kanallar mövcud olub, bunlardan bir dənəsini nümunə kimi göstərəndə iştirak banklarını buna misal olaraq göstərmək olar. Əslində müxtəlif bank və maliyyə sistemləri, maliyyə bazarları içərisində müştəri məmnuniyyəti təmin etməklə fərqlənir və eyni zamanda bir xidmət innovasiya fəaliyyətinə misal göstərmək olar. Bu tipdəki təşkilatlar yalnız Azərbaycana xas olan təşkilatlar deyil, bütün dünyada olan təşkilatlardır. Əmanət və əmanət sahibləri buralarda təcrübələrini və kapitallarını qoruyub qiymətləndirir və iş görmələrini təmin edir.

Ümumi konsepsiya baxımından maliyyə və bank təşkilatlarının əsas səciyyəvi xüsusiyyətlərində kapital, likvidlik kimi bir sıra amillərin olduğunu qeyd etmək onların məsuliyyətlərini sataraq fərqli xüsusiyyətlərə malik olan mövcudluqlarını satın alma yoluyla gəlirləri artırmaq məqsədi güdür.

Bu proses içində tez-tez varlıq dəyişikliyini göstərir ki, bir fərd tanıdığı birinə ipoteka qarşılığı borc vermək əvəzinə, kapitalını bankda bir əmanətə yatırır və bankı tanıyır. Bu şəkildə də bank əmanətə keçən əmanəti nağd pula çevirir.

Pul və kapital bazarlarındakı baş təşkilatlar kommersiya banklardır. Banklar əmanət sahiblərindən əldə etdikləri kommersiya əmanətlərinə əsaslanaraq qısa müddətli kreditlər açır. Bu səbəblə də kredit qaynağını meydana gətirməkdə olan fond sahibləri ilə krediti sahələr arasında doğrudan bir əlaqə yoxdur. Pul və maliyyə bazarlarının əsas vasitəçi qurumlardan olan bankların yanında lizinq şirkətləri kimi sığorta təşkilatları da var.

Bütün bazarlarda olduğu şəkildə, bank sektorunda da olan marketinq keyfiyyətləri ilə tutum qənaətcilliyi arasında sıx əlaqə vardır. Bu səbəblə də yığımı təhlil edərkən sənaye xüsusiyyətlərinin meydana gəlməsinə səbəb olan inkişafların nəzərdə tutulması şərtdir.

## 1.3 Azərbaycan Respublikasında bank sisteminin hüquqi əsasları

Müxtəlif dövlətlərin bank sistemləri bir-birindən ayrılıqda, təcrid olunmuş şəkildə fəaliyyət göstərmir, əksinə, onlar daimi qarşılıqlı təsirdə və qarşılıqlı asılılıqdadırlar. Beynəlxalq iqtisadiyyatın və beynəlxalq iqtisadi münasibətlərin inkişafı milli bank sistemlərində “xarici təsirin” əmələ gəlməsinə gətirib çıxarır. Bu proses xarici kapitalın bu və ya digər dövlətin bank sektoruna daxil olması, bank tənzimetməsi üzrə ümumi standartların işlənib hazırlanması üçün universal və regional əməkdaşlığın inkişafı, bank xidmətləri üzrə transsərhəd bazarın formalaşması şəklində baş verir.

Qeyd edilənlər qanunauyğunluqla spesifik hüquqi kompleksin formalaşmasına gətirib çıxarır. Onun tənzimetmə obyekti xarici elementin təsiri altında olan bank fəaliyyətidir. Bu kompleks beynəlxalq bank hüququ adlanır.

Beynəlxalq bank hüququnun predmeti bank hüquq münasibətləridir. Beynəlxalq bank hüququ xarici və ya beynəlxalq elementli bank hüququ münasibətlərini tənzimləyən və öz predmetinə, mənbələr sisteminə malik beynəlxalq hüququn mühüm sahəsidir. Beynəlxalq bank hüququnun tənzimetmə obyektini beynəlxalq bank əməliyyatları təşkil edir. Elmi ədəbiyyatlarda beynəlxalq bank əməliyyatları ölkə sərhədlərini aşan bankçılığın istənilən forması (Dani Arbukle), bank fəaliyyətinin transsərhəd və beynəlxalq valyuta aspektlərini əhatə edən bir növü (M.Lyuis və K.Devis) və

investisiya fəaliyyətini realizə edən “çoxmillətli bank fəaliyyəti” (M.Buldi və MLKasson) kimi də qəbul edilir.

Bankların yaranması və inkişaf tarixi ilə bağlı müxtəlif mənbələrdə verilən məlumatlar ümumiləşdirilərək şərti olaraq aşağıdakı mərhələlər fərqləndirilir:

1) Qədim dünya tarixindən 1165-cı ildə Venesiya şəhərində Montenyeva Bankının yaranmasına qədər olan dövr;

2) 1165-cı ildən 1694-cü ildə İngiltərə Bankının yaradılmasına qədər olan dövr,

3) 1694-cü ildən XVIII əsrin sonlanna kimi olan dövr,

4) XIX əsrin əvvəllərindən XX əsrin 80-ci illərinə qədər olan dövr,

5) XX əsrin 80-ci illərindən hazırkı dövrə qədər olan mərhələ [14, s. 19].

Ümumiyyətlə, beynəlxalq bank hüququnun mənbələri kimi aşağıdakılar fərqləndirilir: beynəlxalq müqavilələr; beynəlxalq adət; dövlətdaxili qanunvericilik. Dövlətdaxili qanunvericilik beynəlxalq bank hüququ normalarının formalaşmasında əhəmiyyətli rol oynayır. Xarici elementli bank münasibətlərini tənzimləyən milli bank hüququ normaları qanunlarda və qanun qüvvəli normativ aktlarda təsbit edilə bilər.

Beynəlxalq müqavilələr beynəlxalq bank hüququnun müasir inkişaf mərhələsində daha aparıcı rol oynayırlar. Məhz beynəlxalq müqavilələr beynəlxalq bank hüququnun həm kollizion-hüquqi, həm də maddi-hüquqi normalarım unifikasiya etməyə imkan verir. Ayrı-ayrı dövlətlərin bank qanunvericilikləri və bir-birindən fərqli çoxlu sayda normalar beynəlxalq maliyyə dövriyyəsinin effektiv və qısa zaman ərzində inkişafına əngəl olur. Bu problemin həlli vasitəsi beynəlxalq bank hüququ normalarının unifikasiyasıdır. Normaların unifikasiyasında əsas rolu Xüsusi Hüququn Unifıkasiyası üzrə Beynəlxalq İnstitut (UNİDRUA), Beynəlxalq Ticarət Hüquq üzrə BMT Komissiyası (YUNSİTRAL) və Beynəlxalq Ticarət Palatası oynayır.

UNİDRUA çərçivəsində bank fəaliyyəti sahəsində bir sıra konvensiyalar işlənib hazırlanmışdır: Beynəlxalq maliyyə lizinqi haqqında Ottava Konvensiyası (1988), Beynəlxalq maliyyə faktorinqi haqqmda Ottava Konvensiyası (1988), Daşmar əmlaka münasibətdə beynəlxalq qarantiyalar haqqmda Keyp Taun Konvensiyası (2001), Qiymətli kağızlar üzrə Cenevrə Konvensiyası (20Ö9).

YUNSİTRAL-m fəaliyyətinin nəticəsi olaraq Beynəlxalq köçürmə və beynəlxalq sadə veksellər haqqında Konvensiya (1988), Beynəlxalq kredit köçürmələri haqqında Nümunəvi Qanun (1992), Müstəqil qarantiya və ehtiyat akkreditivlər haqqında Konvensiya (1995), Beynəlxalq ticarətdə debitor borcların güzəşti haqqında Konvensiya (2001), Beynəlxalq kontraktlarda elektron rabitənin istifadəsinə dair Konvensiya (2005), Yüklərin tam və ya hissəvi şəkildə dənizlə beynəlxalq daşınmasına dair Konvensiya (2008), Müqavilə əsaslı investor-dövlət arbitrajında şəffaflıq haqqmda Konvensiya (2015).

Beynəlxalq bank hüququ münasibətlərinin çoxşaxəli xarakteri onun subyektlərinə də sirayət edir. Bura beynəlxalq ümumi hüququn klassik subyektləri (dövlət, beynəlxalq təşkilat) və dövlətdaxili hüququn subyektləri (hüquqi və fiZıki şəxslər) daxildir. Hüquqi təbiətmə görə müxtəlif subyektlərin daxil olduğu münasibətlər dövlətlərarası və ya milli forma alır. Beynəlxalq təşkilatlar beynəlxalq hüququn, o cümlədən beynəlxalq: bank hüququnun subyekti sayılır. Dövlətlərarası təşkilatların beynəlxalq hüquq subyektliyi vardır. Beynəlxalq maliyyə təşkilatlarının fəaliyyətinin effektivliyi üzv-dövlətlərin hökumətlərinin qarşılıqlı münasibətlərindən asılıdır.

Beləliklə, bank fəaliyyəti sferasında beynəlxalq hüquq normaları ilə tənzimlənən münasibətlər tədqiq olunur. Belə münasibətlərə əsasən qiymətli kağızlar (veksel, çek), nağdsız hesablaşmalar, qarantiya, lizinq, faktorinq və digər bank əməliyyatlarının realizəsi gedişində meydana çıxan münasibətlər daxildir.

Qiymətli kağızlar arasında veksel və çek daha çox istifadə edilir. Veksel beynəlxalq xüsusi hüququn müxtəlif dövlətlərin hüquqi normaları tərəfindən ən çox kolliziyaya məruz qalan institutudur. Ümumiyyətlə, veksel hüququnun yaranması ticarət münasibətlərinin inkişafının nəticəsidir. E.Pirson qeyd edir ki, anqlosakson yə kontinental sistem dövlətlərinin kommersiya hüququ öz mənbəyini "tacirlər hüquq"undan götürür. Bu hüquq Orta əsrlərdə bütün xalqlar üçün ümumi idi və təbii hüququn tərkib hissəsi kimi çıxış edirdi. Tacir hüququnun spesifik xüsusiyyəti onda idi ki, onun normaları hüquqşünaslar tərəfindən deyil, tacirlərin özləri tərəfindən yaradılırdı.

Veksellə bağlı münasibətlər daha çox kollizion xarakterli olduğundan bu sahədə dünyanın əksər dövlətlərini birləşdirən beynəlxalq hüquqi akt qəbul etmək mümkün olmamışdır. Bununla belə, Köçürmə və sadə veksel üzrə vahid qanun haqqında Konvensiya (1930), Beynəlxalq köçürmə və beynəlxalq sadə vekselləri haqqında Konvensiya (1988) qəbul edilmişdir. Çeklə bağlı beynəlxalq münasibətlər Cenevrə çek konvensiyaları (1931) ilə tənzimlənir.

Hesablaşma hüquq münasibətləri mülki hüquq münasibətlərinin bir növüdür. Bu münasibətlər ödəyicinin hərəkətlərindən irəli gəlir. Həmin hərəkətlər başqa şəxsə, yəni ödənişi alana ödənişin həyata keçirilməsinə yönəlir. Hüquq ədəbiyyatlarında hesablaşma münasibətlərimin hüquqi təbiəti problemi fikir müxtəlifliyi doğuran məsələlərdəndir. Bu, onunla izah olunur ki, "hesablaşma", "hesablaşma münasibətləri", "pul öhdəliyi" terminləri normativ-hüquqi aktlarda geniş tətbiq olunsa da, onların konkret anlayışı verilmir. Hesablaşma münasibətlərinin müstəqil xarakterə malik olub-olmaması müəlliflər arasında fikir ayrılığının yaranmasını şərtləndirən əsas problemlərdən birinə çevrilmişdir.

XXI əsrdə artıq milli bank sistemləri və tənzimetmə mexanizmləri qlobal dəyişikliklərə effektiv şəkildə tab gətirə bilmədi. Xüsusilə də, qlobal iqtisadi dəyişikliklər, dünya iqtisadi və maliyyə böhranları, yeni tendensiyalar, beynəlxalq ticarətdə innovasiyaların tətbiqinin intensivləşməsi bank

fəaliyyətində yeni beynəlxalq nizamasalma metodlarının istifadəsini obyektiv zərurətə çevirdi.

1974-cü ildə Almaniya Federativ Respublikasına məxsus “Bankhaus Herschtatt” Bankının iflası ilk beynəlxalq bank böhranına səbəb oldu. Bu hadisə nəticəsində Bank Nəzarəti üzrə Bazel Komitəsi təsis edildi. Bazel Komitəsi 1975-ci ildə ABŞ, Almaniya, Yaponiya, Böyük Britaniya, Fransa və İtaliya kimi iri dövlətlərin mərkəzi bank rəhbərlərinin razılığı ilə yaradılmışdı. Bazel Komitəsi kapitalın yetərliliyi üzrə bir çox beynəlxalq standartlar qəbul etmişdir. Həmin standartlar Basel  I, II, III kimi də adlandırılır. Bank kapitalının yetərliliyinin müəyyən edilməsi problemi uzun müddət banklar və tənzimetmə orqanları arasında mübahisə və tədqiqat obyekti olmuşdur. Banklar gəlirlilik və aktivlərin artırılması üçün kapitalının minimumuna üstünlük verir, tənzimetmə orqanlan isə müflis olma riskinin azaldılması üçün böyük kapitalın olmasının tərəfdarıdır. Bazel m bank kapitalının yetərliliyi, stress testinq, həmçinin bazarın likvidlik riski sahəsində qlobal normativ hüquqi bazadır və 2010-2011-ci illərdə Bazel komitəsi tərəfindən təsdiq edilmişdir. Dünyada baş verən qlobal iqtisadi dəyişikliklərə qarşı cavab tədbiri kimi qəbul edilən bu sənədin məqsədi bank işi sferasında risklərin idarə edilməsi keyfiyyətinin artırılmasıdır, bu isə öz növbəsində dünyada stabil maliyyə mühitinin qorunub saxlanmasına gətirib çıxarmalıdır. Bazel Hi realizəsi 2012-2019-cu illəri əhatə edir.

Bazel Komitəsinin fəaliyyəti ilə yanaşı, universal xarakterli beynəlxalq normalar bank əməliyyatlarının müxtəlif sferalarının tənzimlənməsi sahəsində də qəbul edilmişdir. Belə sənədlərdən UNİDRUA, YUNSİTRAL və Beynəlxalq Ticarət Palatasının qəbul etdiyi aktları xüsusilə qeyd etmək olar.

Bank fəaliyyəti sahəsində regional əməkdaşlığın dərinləşməsi Avropa bank hüququ adlı yeni sistemin formalaşmasına gətirib çıxarmışdır. Avropa İttifaqı çərçivəsində bank fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində regional əməkdaşlığın inkişafı müvafiq sferada universal beynəlxalq

əməkdaşlığın inkişafı ilə eyni vaxtda başlamışdır. Onların qarşılıqlı əlaqəsi və bir-birinə təsiri tamamilə qanunauyğun haldır. Bir tərəfdən, bank fəaliyyətinin prudensial tənzimlənməsinə dair bank nəzarəti sahəsində Bazel Komitəsinin tövsiyələri Avropa bank hüququnda öz əksini tapmış, digər tərəfdən, Avropa bank hüququ beynəlxalq-hüquqi strukturları və anlayışları innovasion şəkildə tətbiq etməklə, beynəlxalq əhəmiyyət kəsb edən bank fəaliyyətinin prudensial tənzimlənməsinin paradiqmasını özündə əks etdirir.

Ümumiyyətlə, Avropada bank münasibətlərinin normativ nizamlanmağı sferasında ilk addım 12 dekabr 1977-ci il tarixli Kredit təşkilatlarında biznesin təşkili və aparılmasını tənzimləyən inzibati prosedur, qayda və qanunların koordinasiyası haqqında (77/780/EEC) Direktivin qəbul edilməsi olmuşdur. Sonralar bu sənəd İlk Bank Direktivi adım almış və Avropa bank hüququnun əsasını qoymuşdur. Bundan başqa, 15 dekabr 1989-cu il tarixli İkinci hank direktivi (89/646/EEC), 20 mart 2000-ci il tarixli Kredit təşkilatlarında biznesin təşkili və aparılmasına dair direktiv (2000/12/EC) qəbul edilmişdir. Avropa İttifaqında bank fəaliyyətinin hüquqi tənzimlənməsinin müasir mərhələsi 2 yeni direktivin qəbul edilməsi ilə başlanır. Bunlar 14 iyun 2006-cı il tarixli Kredit təşkilatlarının fəaliyyətinin təşkili və aparılmasına dair Direktiv (2006/48/EC) və eyni tarixli Kredit təşkilatları və investisiya firmalarının kapitalının yetərliliyi haqqında Direktivlərdir (2006/49/EC). Hazırda bu direktivlər 16 sentyabr 2009- cu il redaksiyasında (2009/111/EC) fəaliyyət göstərir.

Beləliklə, bank fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində Avropa əməkdaşlığı Avropa hüququnun harmonizasiyasma yönəlmiş Avropa İttifaqı çərçivəsində aparılan düşünülmüş siyasətin nəticəsidir. AR ilə Avropa İttifaqı arasında bank fəaliyyəti sahəsində əməkdaşlıq əlaqələri Avropa Qonşuluq Siyasəti, Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində çox mühüm layihələr üzrə inkişaf etdirilmişdir. Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində əməkdaşlıq əlaqələri MDB-yə gösterilən texniki yardım (TACIS),

Tvirminq, Texniki yardım və Məlumat mübadiləsi (TAIEX) və digər proqramlar üzrə aparılır. TAİEX proqramı əsasən milli qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılmasında texniki kömək göstərmək və məsləhətləşmələr aparılmasını müəyyən edir. Tvinninq layihələrinin əsas hədəfləri Avropa İttifaqı qanunvericiliyinin təhlili, tətbiqi Və realizəsinə dəstək verilməsi, inkişaf etmiş Avropa İttifaqı dövlətlərinin müsbət təcrübəsinin AR-in bank sektoru ilə razılaşdırılması, gələcək əməkdaşlıq əlaqələrində perspektivlərin üzə çıxarılmasıdır.

Regional çərçivədə istiqamətin digər bir tərəfi MDB çərçivəsində əməkdaşlıqla bağlıdır. AR bu təşkilatın da üzvü olduğu üçün MDB çərçivəsində də bank işi sferasında əməkdaşlığa mühüm önəm verir. MDB üzv-dövlətləri bir sıra ümumi xüsusiyyətləri özündə birləşdirən anti-böhran tədbirlərinin komplekslərini, realizə edirlər ki, belə tədbirlərin işlənib hazırlanmasında MDB çərçivəsində bank fəaliyyətinin tənzimlənməsi sferasında əsas institusional mexanizm olan MDB Dövlətlərarası Bankı xüsusi rol oynayır. MDB Dövlətlərarası Banla beynəlxalq hesablaşma və kredit təşkilatıdır. Bundan başqa, MDB Hökumət Başçıları Şurasının 29 may 2015-ci il iclasında Maliyyə-iqtisadi sferada aktual məsələlərin həlli üzrə MDB üzv-dövlətlərinin birgə Fəaliyyət Planı qəbul edilmişdir. 2015-2016-cı illəri əhatə etmiş bu sənəd MDB üzv-dövlətlərinin maliyyə-iqtisadi sferasında müxtəlif tədbirlərin kompleksinin həyata keçirilməsində, makroiqtisadi sabitliyin təminatında, müəyyən iqtisadi artmanın əldə edilməsində, istehsal kooperasiyasının, ticarətin və maliyyə sektorunun inkişafında mühüm rol oynamışdır.

Müasir dövrdə dünyanın ən iri mərkəzi bankı olan Federal Ehtiyat Sistemi və ən çox kapitalı olan kommersiya bankları (C,P.Morgan və Çeys, Sitiqnıp, San Trast bank, Amerika Bankı və s.) ABŞ-da fəaliyyət gösterir. Belə geniş bank sisteminə malik dövlətin bank işini, bank sferası qanunvericiliyini və bank əməliyyatlarım tədqiq etmək, daha sonra həmin praktikanın müsbət

tərəflərini Respublikamızın bank həyatında tətbiq etmək, fikrimizcə məqsədəmüvafıq hesab olunur. ABŞ-da bank fəaliyyəti sferasında hazırda qüvvədə olan 100-dən çox federal qanun qəbul edilmişdir, Federal qanunlar ştatların qanunları ilə tamamlanır. ABŞ bankları ikiqat tabe olma xarakterinə malikdir, yəni, federal hökumətin və ştatların qanunlarına tabeçilik nəzərdə tutulur. Ümumiyyətlə, digər ölkələrdə olduğu kimi, ABŞ bank sistemi də spesifik milli şəraitdə formalaşmış, milli adət və ənənələri özündə əks etdirir.

Böyük Britaniyanın praktikası dünyada bir çox alim tərəfindən tədqiq edilmişdir. Bu Ölkədə 2008-ci il dünya iqtisadi böhranından sonra bank sistemində sabitliyin saxlanılması istiqamətində yeni qanunlar qəbul edilmişdir. 21 fevral 2009-cu il tarixli Banklar haqqında Qanun bankların milliləşdirilməsi, müflisləşmə haqqında qaydalara dəyişikliklər edilməsi, banklararası ödəniş sistemində modernizasiya, Şotlandiya və Şimali İrlandiya banknotlarının buraxılışında dəyişikliklər edilməsi və s. məsələləri əhatə edir. 2013-cü il tarixli Maliyyə xidmətləri Qanunu istehlakçıların hüquqlarının müdafiəsinə yönəlmişdir. Qanun banklarda ehtiyat kapitalının həcminin artırılması, bununla da mövcud və baş verə biləcək kredit risklərinin sığortalanması məqsədi daşıyır. Hazırda Böyük Britaniya bankları müxtəlif faiz dərəcələri təklif etməklə öz fəaliyyət və xidmətlərinə görə bir- birlərindən fərqlənirlər.

Almaniyada bank fəaliyyətinin və maliyyə xidmətlərinin hüquqi əsasını 10 iyul 1961-ci il tarixli Bank Aktı təşkil edir. İndiyə qədər bu Sənədə çoxsaylı əlavə qəbul edilmişdir. Aktın əsas təyinatı maliyyə sektorunun sabitliyinin qorunub saxlanması və kreditorların maraqlarının müdafiəsidir. Bu Qanunun qəbul edilməsinə qədər Almaniyada bank fəaliyyəti sferasında vahid qanunvericilik aktı olmamışdır. Almaniyada bank sisteminin 2-ci pilləsini bank təsisatları təşkil edir. Bank şəbəkəsi yüzlərlə bank və onların filiallarını birləşdirir. Almaniya bankları universaldır, yəni bütün növ bank xidmətlərini göstərmək iqtidarındadır. Banklar arasında əsas müxtəliflik göstərilən xidmətlərin qiyməti və keyfiyyətindədir. Milli bank statistikasına əsasən, bank

təsisatlarına: kredit institutları (kommersiya bankları, regional banklar, xarici bankların filial və nümayəndəlikləri); əmanət kassaları; kooperativ sektor, ixtisaslaşmış bank təsisatları daxildir.

Fransa Bankının tarixində dönüş nöqtəsi 4 avqust 1993-cü il tarixli Aktı oldu. Bank ilk dəfə tamamilə müstəqil şəkildə fəaliyyət göstərməyə başladı. Artıq Bankın əsas vəzifəsi ölkədə pul-kredit siyasətinin sabitliyinin qorunması oldu. Qanuna əsasən Bank Prezident və Parlamentə hesabat təqdim etməli idi. 27 iyul 2013-cü ildə Bank fəaliyyətinin tənzimlənməsi haqqında Qanun qəbul edildi. Qanun bankların fəaliyyətində spekulyasiya halları, icazə prosedurlarının hədləri, müflisləşmə kimi məsələləri tənzimləyir. Qanun kredit təsisatlarından və investisiya firmalarından tələb edir ki, baş verə biləcək böhrandan sığortalanmaq üçün profilaktik bərpa planları işləyib hazırlasınlar.

İtaliyanın bank sistemini fərdi əmanətçi və investorların, həmçinin sahibkarların tələblərini ödəyən iri, orta və kiçik yerli bankların geniş şəbəkəsi təşkil edir. Bank sisteminin birinci pilləsini ölkənin mərkəzi banla olan İtaliya Bankı təşkil edir. İkinci pilləni kommersiya bankları təşkil edir. İtaliya Bankı maliyyə sabitliyinin qorunması və effektivliyin artırılması məqsədilə banklara prudensial nəzarəti həyata keçirir. Müasir dövrdə İtaliya Banla növbəti funksiyaları həyata keçirir: ölkənin bank sisteminin işində effektivlik və stabilliyin qorunub saxlanması, avronun emissiyası, rəsmi qızıl valyuta ehtiyatlarının saxlanması, gəlir və xərclərin əks olunduğu dövlətin hesablarının aparılması, kredit təsisatlarına və dövlətə kreditlərin verilməsi və s.

AR-də bank işinin meydana gəlməsi qədim tarixə və zəngin təcrübəyə malik olmasa da, özünəməxsus xüsusiyyətlərə malikdir. Ümumiyyətlə, AR-də bank işinin formalaşması və inkişaf tarixini ictimai- siyasi və tarixi hadisələri nəzərə almaqla, şərti olaraq aşağıdakı mərhələlərə ayırmaq olar: Qədim və Orta əsrlər mərhələsi; 1860-1918-ci illər: ilk bank təsisatlarının formalaşması; 1918-1923-cü illər: siyasi proseslərin təsir mərkəzində; 1923-1991-ci illər: SSRİ

Dövlət Bankının Azərbaycan İdarəsinin fəaliyyəti; 1991-ci ildən hazırkı dövrə qədər: müstəqillik dövrü [17, s. 45].

Hazırda AR-in kredit təşkilatları, əsas etibarilə kommersiya bankları və bank olmayan kredit təşkilatlan öz fəaliyyətlərini kreditlərin verilməsi üzərində qurmuşdur, əmanətlərin cəlb edilməsi və hesablaşma əməliyyatları isə bir qədər zəif inkişaf etmişdir.

Banklar, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi ilə müqayisədə istehlak kreditlərinə üstünlük verirlər. Biz bu tendensiya ilə razı deyilik, çünki kreditlə satılan istehlak malları əsasən elektrik avadanlıqları, məişət əşyaları, hətta təyinatı göstərilməyən kreditlərdir. Belə məhsullar isə Respublikamıza xarici ölkələrdən idxal olunur, yəni banklar xarici malları kreditlə satır, halbuki yerli istehsalın, kənd təsərrüfatının inkişafına bu qədər maliyyə vəsaiti ayrılmır. Lüzumsuz şəkildə istehlak kreditləri ilə borclanmış əhali isə həmin kredit borclarım vaxtında qaytara bilmir. Nəticə isə bugünkü reallıqda kütləvi şəkildə verilmiş istehlak kreditlərinin vaxtında qaytarılmaması və maliyyə itkisidir.

Respublikamızın hazırkı bank sistemində müəyyən problemlər mövcuddur. Bunun ilkin səbəbi dünyada baş vermiş qlobal iqtisadi dəyişikliklər, xüsusilə də dünya bazarlarında neftin qiymətinin kəskin şəkildə düşməsi, nəticədə Ölkəmizin milli valyutasının xarici valyuta, əsasən də dollar və avro qarşısında devalvasiyasıdır. 2015-ci ilin fevral və dekabr aylarında milli valyutamızın məzənnəsində baş vermiş dəyişikliklərdən ən çox əziyyət çəkən də elə bank sektoru oldu. Əsas problem xarici valyutada verilmiş kreditlərin qaytarılmasında kütləvi ləngimələr, eyni zamanda bankların xarici valyutada aldıqları borcların qaytarılması ilə bağlı idi. Digər bir problem də əhalinin xarici valyutada banklara yerləşdirdiyi əmanətlərin qaytarılması ilə bağlı meydana çıxmışdı.

Bundan başqa, bankların hazırkı fəaliyyətində bir sıra məsələlərin də təkmilləşdirilməsinə zərurət vardır. Belə ki, AR Sahibkarlığa Kömək Milli Fondu və Azərbaycan İpoteka Fondu ASC tərəfindən müvəkkil banklar

vasitəsilə əhaliyə müvafiq olaraq, kiçik və orta biznesin maliyyələşdirilməsinə və mənzillərin alınmasına kreditlər ayrılır. Bu növ kreditlərin verilməsində əsas nöqsanlar çoxsaylı sənədlərin tələb edilməsi, kreditin şərtlərinin ağırlığı və kreditin verilmə prosedurunun uzun müddət aparmasıdır. Hesab edirik ki, yaxın vaxtlarda bu istiqamətdə də ciddi dəyişikliklər həyata keçiriləcəkdir.

İqtisadiyyatda istənilən bir sektorun inkişafı və modernləşdirilməsi üçün xarici əməkdaşlıq vacib amildir. Xarici əməkdaşlıq ölkəyə bir çox zəruri mexanizmlər gətirir - xarici təcrübə, yeni texnologiya və innovasiyaların tətbiqi, qanunvericilik bazasında təkmilləşmə və beynəlxalq səviyyədə tanınma və s. Bank işi sahəsində ölkəmizin beynəlxalq əməkdaşlığı bank sisteminin qarşısında durmuş vəzifələrin reallaşmasını təmin etməyə, görülən islahatlar və modernləşmə tədbirlərində bankın işində zəngin praktikaya sahib olan xarici mərkəzi və kommersiya banklarının təcrübəsindən faydalanmağa zəmin yaratmışdır.

AR-in əməkdaşlıq etdiyi beynəlxalq maliyyə institutları arasında Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Banla, Asiya inkişaf Bankı, İslam İnkişaf Bankı xüsusi yer tutur.

AR-in əməkdaşlıq etdiyi ən əhəmiyyətli qurumların başında Dünya Bankı gəlir. Dünya Bankı kiçik və orta sahibkarlığın inkişafı, makroiqtisadi sabitlik, infrastruktur layihələrinin maliyyələşdirilməsi, sosial sferaya yardım, kənd təsərrüfatı və bütövlükdə qeyri-neft sektorunun inkişafi istiqamətində ölkəmizə müxtəlif kreditlər ayırmışdır.

AR Beynəlxalq Valyuta Fonduna 18 sentyabr 1992-ci il tarixində üzv olmuşdur. Beynəlxalq Valyuta Fondu ilə AR Hökuməti arasında imzalanmış Maddələr Sazişinin IV Maddəsinə əsasən, maliyyə yardımı ilə yanaşı, texniki yardımların göstərilməsi, vergi-gömrük məsələləri, monetar siyasət, bankların fəaliyyətinə nəzarət kimi məsələlərdə Beynəlxalq Valyuta Fondu AR-ə kömək göstərir. Bundan başqa, Respublikamız 25 sentyabr 1992-ci il tarixdə Avropa Yenidənqurma və inkişaf Bankına üzv olmuşdur. Avropa Yenidənqurma və

inkişaf Bankının spesifik xüsusiyyəti ondadır ki, Bank investisiya layihələrinin maliyyələşdirilməsi üçün irimiqyaslı milli valyutaları özünə cəlb edir. Hər bir investisiya layihələrində Avropanın Yenidənqurma və İnkişaf Bankı bazar iqtisadiyyatının qurulması, özəl sektora kömək üçün lazımi şəraitin yaradılması, daxili investisiyanın və kapitalın cəlb edilməsi və s. sferalarda kömək göstərir.

İslam İnkişaf Bankının AR-də həyata keçirdiyi layihələr arasında “Azərbaycanda kənd yerlərinin kompleks inkişafı” layihəsi (2011-2019) və “Azərbaycanın 6 rayonunda milli su təchizatı və kanalizasiya proqramı” layihəsi (2012-2018) xüsusi önəm kəsb edir.

AR-in 1999-cu ildən əməkdaşlıq etdiyi Asiya inkişaf Bankının ölkəmizdə maliyyələşdirdiyi sfera yol şəbəkəsinin inkişafıdır. Bankın fəaliyyət mexanizmləri arasında kreditlərin verilməsi ilə yanaşı, qrantlar, siyasi dialoq, texniki yardım və kapital investisiyaları kimi vasitələrdən də istifadə edilir.

Hazırda respublikamızın bank sektoru inkişaf edən templə gedir. Ölkədə bank işinin təkmilləşdirilməsi sferasında qənaətbəxş qanunvericilik sistemi vardır. Beynəlxalq maliyyə institutları ilə əməkdaşhq da Respublikamızda həm bank sektorunun, həm də ümumilikdə iqtisadiyyatın inkişafına və sabitliyinə töhfə vermişdir.

Son illər Respublikamızın qlobal və regional səviyyəli müxtəlif təşkilatlara üzv qəbul olması, o cümlədən beynəlxalq müqavilə və sazişlərə qoşulması ilə səciyyələnir. Belə müqavilə və sazişlərin müəyyən bir hissəsi bank sektorunun inkişafına yönəlmişdir. AR bu tip sənədləri dövlətdaxili qanunvericiliyə daxil edərək öz beynəlxalq öhdəliklərini icra edir. Bank fəaliyyətinin hüquqi tənzimlənməsi sferasında əsas addım 2004-cü ildə Banklar barəsində və Mərkəzi Bank haqqında olan qanunların verilməsi oldu.

2004-cü ilin 16 yanvar tarixində Banklar haqqında AR Qanunu AR-də bank sektorunun hüquqi bazasının dünya standartlarına tam uyğunlaşdırılması, iqtisadi sistemdə bankın xidmətlərinin təsirinin çoxalması, bank

əmanətçilərinin və kreditorlarının qorunmasının gücləndirilməsi və bütünlükdə bank sektorunun sabit və təhlükəsiz fəaliyyətinin təmin olunması məqsədi ilə bankların təşkili, daxili idarəsi, fəaliyyətinin tənzim olunması və ləğv olunma prinsiplərini, qaydalarını və normalarım müəyyənləşdirilir [3].

AR-də bank fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində növbəti vacib qanunvericilik aktı 2004-cü ilin 10 dekabr tarixindəki Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Qanundur. Bu Qanun AR MB-nin hüquqi statusunu, onun məqsədini, funksiyasını və səlahiyyətlərini, eləcə də idarəetmə və təşkilatı quruluşunu müəyyənləşdirir, dövlət bankı kimi hakimiyyət orqanları ilə və başqa şəxslərlə münasibətlərini tənzimləyir. Qanunun 1-ci maddəsində deyilir ki, Mərkəzi Bankın öz fəaliyyətində milli qanunvericiliyi və AR-in tərəf olduğu beynəlxalq müqavilələri əsas tutur.

Müasir dövrdə AR-in bank sektorunda və qanunvericiliyində baş vermiş mühüm dəyişiklik AR Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması olmuşdur. Bu təsisat milli valyutamızın xarici valyutaya nisbətdə öz məzənnəsini itirməsi və bank sektorunda baş vermiş neqativ halların aradan qaldırılması fonunda yaradılmışdır. AR başçısının 2016-cı ildə mart ayının 10-da 828 nömrəli Fərmanı ilə Palatanın Nizamnaməsi təsdiq edilmişdir. Bu sənəd bank sferasında qəbul edilmiş beynəlxalq hüquq normalarının milli qanunvericilikdə implementasiyasına növbəti nümunədir.

Beynəlxalq-hüquqi normaların təsiri ilə Respublikamızda bank qanunvericiliyi təkmilləşdirilmiş və müxtəlif qanunvericilik aktları qəbul edilmişdir. Onların arasında Mühasibat uçotu haqqında (29.06.2004), İpoteka haqqında (15.04.2005), Dəyərli metallar və bahalı daşlar barəsində (10.06.2005), Əmanətlərin sığortalanması haqqında (29.12.2006), Daxili audit haqqında (22.05.2007), Dövlət borcu haqqında (22.05.2007), Xüsusi iqtisadi zonalar haqqında (14.04.2009), Cinayət ilə əldə olunmuş pul vəsaitlərinin və yaxud başqa əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşməsinə qarşı mübarizə barəsində (10.02.2009), Bank olmayan kredit təşkilatlan

haqqında (25.12.2009), Qiymətli kağızlar bazarı haqqında (15.05.2015) və s. AR qanunlarım qeyd etmək olar [10].

Bank fəaliyyəti sferasında milli qanunvericiliyimizin təkmilləşdirilməsində beynəlxalq hüquqi normalar, xüsusilə də Bazel Komitəsinin, Beynəlxalq Ticarət Palatasının tövsiyə xarakterli normaları, həmçinin bank praktikasında formalaşmış qaydalar mühüm əhəmiyyət kəsb edir. Həmin standartların AR-də tətbiqi üçün zəruri şəraitlərin daha da inkişafı zəruridir. Ölkənin ümumi iqtisadi inkişaf səviyyəsi, maliyyə sabitliyi, əlverişli investisiya mühiti, şəffaf qanunvericilik bazası və s. qeyd edilən şəraitin yaradılması üçün ilkin şərtlərdir.

# FƏSİL II. AZƏRBAYCAN RESPUBLIKASINDA BANKLARIN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

## 2.1. Mərkəzi və Kommersiya banklarının fəaliyyətinin əsas istiqamətləri və onlar arasında qarşılıqlı əlaqənin təhlili

SSRİ dağılandan sonra ölkəmiz tamhüquqlu bir dövlət olaraq dünya iqtisadiyyatına daxil oldu. O zamanlar dövlətin qarşısında duran təməl məsələlərdən biri də daxili təsərrüfatın idarə olunması idi. Ümumiyyətlə, keçid iqtisadiyyatlı ölkələrdə iqtisadiyyatın inkişaf etməsi iqtisadiyyatı tənzimləmə üsullarından birbaşa asılıdır. Rəqabətli bazar iqtisadiyyatı olan ölkələrdə bu məqsədə görə pul-kredit siyasətinin vasitəsilə çatılır. Ona görə ki, keçid dövrü olan ölkələrin ən aktual problemi inflyasiya problemidir. Pul-kredit strategiyası da inflyasiyanın tənzimlənməsinin ən ideal metodlarından biridir. Buna görə də belə demək mümkündür ki, pul-kredit siyasətinin aparılması ölkəyə iqtisadi böhrandan çıxmaqda köməklik göstərir. İnkişafda olan ölkələrdə pul-kredit siyasəti daha geniş şəkildə tətbiq edilir. Tarixi olaraq adıçəkilən siyasət iqtisadiyyatı idarə etməkdən ötrü istifadə edilən ilk metodlardan biri olaraq vurğulanmışdır. Pul-kredit sistemini öyrənməzdən əvvəl pulun yaranması prosesinə baxaq. İctimai əmək bölgüsü prosesi pulun da yaranmasında zəruri rol oynadı. Demək olar ki, elə o zamandan pul iqtisadi sistemin ən önəmli amillərindən birinə çevrildi. Ölkədə olan iqtisadi sistemin fərqliliyindən asılı olmayaraq, iqtisadiyyatın idarə olunması pul amili nəzərə alınmadan qeyri-mümkün olmuşdur. Bazar iqtisadiyyatının idarəedilməsində isə pul birbaşa iştirak edir. Amma iqtisadiyyatı tənzimləmə metodologiyasından asılı olaraq, iqtisadiyyatın idarə olunmasında pul bəzən birbaşa, bəzən də bilavasitə iştirak edir.

Pul kredit siyasəti dövlətin iqtisadi siyasətinin yeganə aləti deyildir. Amma bazar iqtisadiyyatında adıçəkilən siyasətin fəaliyyəti çox böyük məsuliyyətlə ölçülür. Pul kredit siyasəti istənilən iqtisadiyyatın əsas hissəsi hesab olunur. Pul-kredit siyasəti deyərkən istehsal prosesi və konyukturanın idarə olunması məqsədi ilə monetar hakimiyyət tərəfindən pul kredit sferasında həyata keçirilən siyasət başa düşülür. [2]

Hər bir bazar iqtisadiyyatlı ölkələrdə olduğu kimi ölkəmizdə də pul kredit siyasətini səmərəli reallaşdırmaq prioritet məsələlərdən ən vacibidir. Bu siyasəti ölkəmizin əsas bankı olan Mərkəzi Bank aparır. Ölkədə pul kredit siyasəti “ Mərkəzi bank haqqında ” Azərbaycan Respublikasının qanunu ilə tənzim edilir. Bu qanun 10 dekabr 2004-cü ildə ölkəmizin Prezidenti İlham Əliyev tərəfindən təsdiqlənmişdir. [3]

1. Mərkəzi Bank qarşıdan gələn il üçün dövlətin pul strategiyasının əsas istiqamətlərini oktyabrın 1-dən gec olmamaq şərtilə Azərbaycan Respublikasının Prezidentinə təqdim edir və dekabrın 31-dək KİV vasitəsilə ictimaiyyətə çatdırır.

2. Pul siyasətinin təməl istiqamətlərini açıqlayarkən MB cari ildə reallaşdırılan pul siyasətinin yekunları, həmçinin qarşıdakı ilə görə müəyyənləşdirdiyi pul siyasətinin məqsədlərini və vəzifələrini, MB-dən asılı olan və olmayan amilləri də göstərməklə onların aparılması yollarını göstərir.

Pul kredit siyasətini reallaşdırmaq üçün pul kredit siyasətinin müxtəlif alətlərindən istifadə edilir. Belə alətlər fərqli ölkələr üçün fərqli sayda ola bilər. Bu alətləri ölkəmizin timsalında izah edək. Qeyd edilən alətlər Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının qanununun 29-cu maddəsində göstərilib. [3]

Pul tədavülü prosesinin tənzimlənməsi məqsədi ilə onun öyrənilməsinə yönəldilmiş pul kütləsinin həcmi və strukturunu göstərən göstəricilərdən istifadə edilir. İEÖ-də pul aqreqatları aşağıdakı şəkildə təsnifatlaşdırılır:

- $M_1$= tədavüldəki nağd pul və cari bank hesablarında olan vəsait.

- M2=M1+ kommersiya banklarının 4 ilə ərzində olan əmanətləri
- M3=M2+ixtisaslaşdırılmış kredit idarələrinin əmanətləri
- $M_4$=$M_3$+ iri kommersiya banklarının depozit sertifikaları.

Azərbaycanda pul kütləsinin aqreqatları aşağıdakı şəkildə təsnif edilir:

- M0=bank sistemindən kənar nağd pul, yəni dövriyyədə olan nağd pul;
- M1=M0+ kommersiya banklarında əhalinin və müəssisələrin depozitləri, yəni, Mo+tələbolunanadək əmanət və depozitlər
- M2=M1+ əmanət banklarında müddətli əmanətlər;
- M3=M2+ bankların depozit sertifikatları; dövlət istiqraz vərəqələri, xarici valyuta ilə depozitlər.

Mərkəzi Bankın əsas məqsədi öz səlahiyyətlərinin daxilində qiymətlərin sabitliyinin təmin olunmasıdır. Bununla bərabər, Mərkəzi Bankın məqsədi, habelə bank və ödənişlərin sabitliyi və inkişafının təmin edilməsidir. Mənfəət əldə etmək Mərkəzi Bankın əsas məqsədi deyil. Mərkəzi Bank məqsədə nail olmaq olmaqdan ötrü aşağıdakı funksiyaları reallaşdırır:

1. dövlətin pul-valyuta siyasətini müəyyənləşdiri və reallaşdırır;
2. nəğd pul dövriyyəsinin axımının təşkili ilə məşğul olur, Konstitusiyamızın 19-cu maddəsinin ikinci hissəsinə uyğun çəkildə, pul nişanələrinin tədavülə getməsini və tədavüldən çıxmasını reallaşdırır;
3. manatın xarici ölkə valyutalarına nisbətən rəsmi məzənnəni mütəmadi müəyyənləşdirir və elan edir;
4. qanunvericiliyə müvafiq şəkildə valyuta tənzimi və nəzarətini reallaşdırır;
5. sərəncamındakı beynəlxalq qızıl-valyuta resurslarını saxlayır və idarəsi ilə məşğul olur;
6. qanunvericiliyə uyğun şəkildə hesabat və tədiyyə balanslarını tərtib edir və milli iqtisadi proqnozun hazır edilməsində iştirak edir,

7. “Banklar barədə” və “Poçt barədə” ölkəmizin qanunlarına və onlara müvafiq olaraq qəbul etdiyi aktlara uyğun şəkildə bank fəaliyyətinə lisenziya verir və tənzimləyir, qanunla müəyyən olunmuş qayda iə bank fəaliyyətinə nəzarəti reallaşdırır;

8. ödəniş sisteminin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üstündə nəzarəti qanuna uyğun şəkildə aparır;

9. ölkəmizin qanunlarında nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

## 2.2. Azərbaycan Respublikasında manatın devalvasiyasının bank sektoruna təsirinin təhlili

Bazar münasibətlərində bankların fəaliyyətinin inkişafı və təkmilləşdirilməsi probleminin öyrənilməsi həmişə aktual olaraq qalır. Yeni iqtisadi durumun tələblərinə müvafiq olaraq, aparılmış iqtisadi islahatlar bank fəaliyyətlərinin daha da inkişafını, onların müasir prinsiplər əsasında formalaşdırılmasını tələb edir. Aparılmış islahatlar bank sisteminin stabilliyinin və dinamik inkişafının təmin olunması üçün əlverişli mühit yaradır. Bankların düzgün fəaliyyəti bank sisteminin stabilliyi üçün çox böyük əhəmiyyətə malikdir. Elə buna görə də, rəqabət şəraitində bank fəaliyyətinin təkmilləşdirilməsi iqtisadiyyatın mərkəzi problemlərindən biri olmaqla, onun nəzəri, metodoloji və praktiki cəhətlərini müəyyənləşdirən fundamental elmi tədqiqatların sistemli olaraq aparılmasını zəruriləşdirir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra bank fəaliyyətinin təkmilləşdirilməsi hökumətimizin diqqət mərkəzində olmuşdur. Ölkəmizdə iqtisadiyyatın sabit və diqqətəlayiq inkişafı bank sisteminin işləməsi, xüsusilə də kommersiya banklarının düzgün fəaliyyəti ilə sıx bağlıdır. Bankların iqtisadiyyatın mühüm təməllərindən biri olması, fəaliyyətin çərçivəsinə görə

ümumiliyi, işin lisenziyalaşdırılması, təkmilləşdirilməsi və ona nəzarət olunması məsələləri dövlətin əsas funksiyalarından biri olaraq vurğulanır.

Fərqli ölkələrin özünəməxsus xüsusiyyətləri olduğuna görə tənzimlənmə metodları da fərqlli olur. Hal-hazırda beynəlxalq miqyasda bank işi yavaş-yavaş dövlətin müdaxiləsindən kənaralaşa bilir. Bu isə dünyanın maliyyə bazarlarında fərqli aparıcı transmilli bankların rəqabətləri ilə əlaqədar olur [17, s. 28].

Bank sisteminin fəaliyyəti üçün əlverişli mühitin formalaşması dövlətin makroiqtisadi strategiyası, hansı iqtisadi nəzəriyyənin və siyasətin aparıcı olması prosesindən asılıdır. Məsəl üçün, əsasını ucuz pul siyasəti təşkil etmiş Keyns modelində banklarda kredit imkanı artır, iqtisadiyyatda resurs axını güclənir, həmçinin, inflyasiyaya olan meyllər artır. Banklar iqtisadiyyata pul axımını təmin edən körpü kimi xidmət göstərir və əməliyyatlardan, senyoraj olaraq isə infilyasiyadan faydalana bilər. Monetarist modellərin dominant olmasına baxmayaraq, o zaman sərt pul-kredit strategiyası banklara da təsir edərək, resurs əldə etmə imkanlarını məhdudlaşdıracaq, həmçinin sabit valyuta məzənnəsi uzun müddətli layihələrin effektivlik səviyyəsini və proqnoz məsələlərini asanlaşdıracaqdır.

Praktiki şərtlərə uyğun şəkildə uğurla inkişaf edən əksər ölkələrdə milli bank sektoru üçün təsisat bazası əsas rol oynayaraq, əmanətlərin investisiyalara transformasiyasını özündə cəmləşdirən dövlət inkişaf institutları öz fəaliyyətini təmin edir. Bir qayda olaraq adıçəkilən təsisatlara daxili qoyuluşları istehsal investisiyalarına istiqamətləndirən dövlət inkişaf bankları, ixrac əməliyyatlarının kreditləşdirilməsi və iqtisadi sistemin rəqabətqabiliyyətliliyini artıran idxal-ixrac bankları, əhali əmanətlərini mənzil tikintisinə istiqamətləndirən dövlət maliyyə strukturları və ssuda-əmanət bankları, fərqli sahə investisiya korporasiyaları, riskli innovasiya planlamasının maliyyələşməsi fondları aid edilir.

İqtisadi sistemin real sektoru ilə bank sektoru daha fəal əlaqədə olması üçün geniş resurs bazasının formalaşdırılması tələb edilir. Bununla əlaqədar olaraq bank sisteminin strateji rollarından biri də əhalinin əmanətlərinin özünə cəlb edilməsi üzrə işin fəal həyata keçirilməsidir. Ona görə ki, əhalinin əmanətlərinin banklara cəlb edilməsini aşağıdakılar şərtləndirməkdədir:

– maliyyə vasitəçilərinə istər əhalinin, istərsə də iqtisadi subyektlərin inamının çoxalması;

- real faiz dərəcəsinin dəyişdirilməsi;
- əhalinin real olan gəlirlərinin getdikdə artması.

Kommersiya banklarının cəlb etdikləri ehtiyatlarda əhalinin əmanətlərinin çəkisinin zəif səviyyədə olması, bank sektorunun inkişafını xarakterizə edən mühüm göstəricilərdən biridir. Elə bu göstərici pul indikatoruna da özünün təsirini bildirir.

Pul multiplikatoru, yəni ki banklarda pul kütləsinin yaradılmasında olan vəzifəsinin göstəricisi aşağıdakı nisbətlə ayırd edilir:

- nağd m=Ms Mb = nağd pul pul + bank + depozitlər
- əməliyyatları = nəğd pul / depozitlər + depozitlər / depozitlər
- nəğd pul /depozitlər + bank əməliyyatları / depozitlər = (q (q + + 1) 2)

Burda, M - pul multiplikatoru Mb - pulun bazası Ms - pulun kütləsi Mb aqreqatı banklardan kənardakı nağd pul və bankların ehtiyatlarım əhatə edir. Kommersiya banklarının resurslarına isə onların kassalarındakı nağd pul və mərkəzi bankda olan hesablarında yerləşdirilmiş resurslar daxildir. Mərkəzi bankda olan hesabdakı vəsaitin bir hissəsini məcburi resurslar (müxbir hesablarında olan resurslar), digərini isə izafi resurslar təşkil edir. Vurğulayaq ki, Mərkəzi Bankın göstərilən strukturu MB-nin passivlərini göstərir. Mərkəzi Bankın aktivləri nöqtəyi-nəzərdən isə Mərkəzi Banka xalis xarici aktiv və xalis daxili aktivlər daxildir.

Ms aqreqatına banklardan qıraqda nəğd pul, tələb edilənədək depozitlər, müddəti olan depozitlər, sair depozitlər və dəyərli kağızlar aiddir. Ms-ə aid olan komponentlərin miqdarı və tipi ölkələr üzrə fərqli ola bilər. Bu maliyyə-bank sahəsinin inkişaf dərəcəsindən asılıdır. İnkişaf dərəcəsi artdıqca, Ms-in də kəmiyyətin göstəricisi bir o qədər çoxalır (M2, M3, M4 və s.). Oxşar şəkildə pul bazasındakı kimi, burda qeyd edilən struktur Ms-in ancaq passiv yönünü göstərir. Ancaq, konsolidə olunan balansın yəni ki, pul kütləsinin aktiv olan hissəsi də vardır və bura bank sisteminin ümumi xalis xarici aktivləri və ümumi xalis daxili aktivləri aid olunur.

Bank sistemi anlayışı öz məzmununa əsasən sistem anlayışına uyğun gəlməklə müvafiq elementlərin cəmidir, bu elementlər bir yerdə müəyyən tamlığa malikdir, qeyd edilən elementlər qarşılıqlı şəkildə əlaqədədir. Konkret olaraq bank sistem-bankların, bank infrastrukturunun, bank qanunçuluğunun və bank bazarının cəmidir. İqtisadi sistemin tərkibi olmaqla bank sistemi ölkədəki iqtisadi münasibətləri göstərir [12].

Bank sektorunu digər sektorlardan fərqləndirən bir-neçə xüsusiyyəti var. Bu xüsusiyyətləri ayrı-ayrılıqda araşdıraq. Bank sektoru bir məqsədə xidmət göstərən müxtəlif hissələrin, elementlərin birliyi kimi təsəvvür olunur. Bank sektorunun özünəməxsusluğu onun daxilində olan bölmələrin və onların qarşılıqlı münasibəti ilə müəyyənləşdirilir. Bu zərurət olduğu zaman sistemin elementlərinin biri-birini əvəz etmə ehtimalının olması mənasına gəlir. Əgər müəyyən bir səbəbdən banklardan biri bağlanar və ya ləğv edilərsə sektor öz fəaliyyət qabiliyyətliliyini itirmir. Onun yerinə yetirdiyi funksiyaları digər banklar yerinə yetirir, lazım olduqda isə təzə bank yaranır. Yəni, sistemin bütövlük prinsipi pozulmur.

Bank praktikasında sistemli risklərin aşağı salınmasından ötrü instutisional tədbirlərdəndə istifadə edilir.

Bu cür tədbirlərdən biri müştərilərin monitorinqidir. Monitorinq 2 şəkildə reallaşdırılır: 1-si, kommersiya banklarının reallaşdırdıqları

monitorinqdir. 2-si isə mərkəzi banklar tərəfindən reallaşan ümumilikdə iqtisadiyyatın və müəssisənin monitorinqdir. Başqa mütəxəssislərin fikrinə görə iqtisadi konyukturun monitorinqi risk dərəcəsini aşağı salmaq və kommersiya banklarının inkişaf strategiyasında qeyri-müəyyənliyin ortadan götürülməsi üçün vacibdir. Monitorinq bir qayda da, gözlənilən dəyişikliklərdən bir neçə il öncədən başlanmalıdır. [7]

Uçot dərəcəsi siyasəti:

Son 3 ildə hər kəsin yaxından tanış olduğu uçot dərəcəsi Mərkəzi Bank tərəfindən kommersiya bankları üçün müəyyənləşdirilən bir normadır. Uçot dərəcəsi yenidən maliyyələşdirmə norması və ya diskont kimi adlarla da qarşımıza çıxa bilər. Mərkəzi Bank inflyasiyanın dərəcəsinə təsir göstərmək məqsədilə uçot dərəcəsini artırıb azalda bilər və bu da dövriyyədə olan pulun miqdarına təsir göstəririr. Bunun necə baş verdiyini aydınlaşdırmaq üçün uçot dərəcəsinin nə olduğuna daha dəqiq nəzər salaq. Kommersiya bankları əhaliyə kreditlər vermək üçün davamlı olaraq pul vəsaitlərinə ehtiyac duyur. Mərkəzi Bankın kommersiya banklarına ayırdığı kredit də kommersiya banklarının sahib olduğu pul mənbələrindən biridir. Aydındır ki, Mərkəzi Bank 'kommersiya banklarına verdiyi krediti müəyyən faizin qarşılığında verir. Bu faizin nə qədər olduğunu isə uçot dərəcəsi müəyyənləşdirir. Uçot dərəcəsinin 10%-ə bərabər olması, Mərkəzi Bankın Kommersiya banklarına krediti 10%-lə verdiyinin göstəricisidir. Kommersiya bankları gəlir əldə etmək üçün Mərkəzi Bankdan aldığı kreditlərin üzərinə faiz əlavə edərək onu əhaliyə kredit şəklində verir. Fərz edək ki, kommersiya bankları əhaliyə krediti 20%-lə verir. Bu zaman Mərkəzi Bankın dövriyyədə olan pulun miqdarını tənzimləməsi üçün uçot dərəcəsindən hansı məqsədlə istifadə edə biləcəyini özlüyümüzdə aydınlaşdıra bilərik. Mərkəzi Bank uçot dərəcəsini 10%-dən 15%-ə qaldırdığı halda, kommersiya banklarının gəlirləri azaldığı üçün, onlar da əhaliyə verdikləri kreditlərin faizlərini artırmalı olurlar. Bu zaman kreditlərin faiz dərəcələri artdığı üçün daha az insan kredit götürməkdə maraqlı olur, yəni

əhaliyə kredit 20%-lə verildiyi halda 1000 manat kredit götürən birinin 200 manat əlavə faiz ödəməyi gözə ala biləcəyi halda, 30%-lə verilən kreditdə 300 manat əlavə ödəniş eləməyi gözə almayacağını görə bilərik. Başqa sözlə daha çox faizlə kreditin verilməsi kreditlərin götürülməsini azaldır və bu da dövriyyədə olan pul miqdarının azalmasına səbəb olur. Dediklərimizi bir daha ümumiləşdirsək, uçot dərəcələrinin artırılması, kreditlərin alınmasını azaltdığı üçün dövriyyədə olan pul kütləsinin həcmi azalır və bu da öz növbəsində inflyasiyanın artım tempinin azalmasına səbəb olur. Uçot dərəcələrinin artırılması əsasən yüksək inflyasiyanın qarşısını almaq üçün həyata keçirilir.

Eyni zamanda uçot dərəcələrinin azaldılması, kreditlərin daha çox alınmasına səbəb olacağından dövriyyədə olan pul kütləsinin həcmi artmış olur və bu da öz növbəsində inflyasiyanın artım tempini sürətləndirir. Mərkəzi Banklar uçot dərəcələrini arzuolunmaz deflyasiyalar baş verən zaman həyata keçirirlər.

Kommersiya banklarının pul mənbələrindən biri də insanların banklara yatırdığı depozitlərdir. Bu depozitlərdən istifadə edən kommersiya bankları əhaliyə kreditlər verərək gəlir əldə edirlər. Əgər kommersiya bankları sahib olduğu bütün ehtiyatı kredit şəklində dövriyyəyə buraxarsa, bu zaman depozit sahibləri vaxtından tez öz əmanətini tələb edəcəyi halda bankların həmin şəxslərə ödəyə biləcəyi bir məbləğ olmazdı. Bu kimi halların önünə keçmək və kommersiya banklarını nağd pul kütləsi ilə təmin etmək məqsədilə Mərkəzi Bank tərəfindən məcburi ehtiyat norması tətbiq olunur. Bu normanın necə işlədiyinə və pulun kütləsinə necə təsir göstərdiyinə nəzər salaq:

Kommersiya bankının əlində 1 milyon manat olduğunu və məcburi ehtiyat normasının 10% olduğunu düşünək. Bu halda bank əlində olan 1 milyon manatın 90%-ni, yəni 900 min manatını kredit şəklində əhaliyə verə biləcək. Qalan 10%, yəni 100 min manat isə ehtiyatda saxlanacaqdır» Mərkəzi Bank məcburi ehtiyat normasını 15%-ə artırarsa, bu halda dövriyyəyə 85% həcmində pul daxil olacaqdır. Əgər 5%-ə endirərsə, bu zaman dövriyyəyə 95%

həcmində kredit buraxılacaqdır» Göründüyü kimi məcburi ehtiyat normasının artması dövriyyədə olan pul kütləsinin azalmasına səbəb olduğu üçün inflyasiyanın artım tempini azaldır, əksi olan proses isə dövriyyədə olan pul kütləsinin həcmini artırdığı üçün inflyasiyanın artım tempini sürətləndirir. [8]

Ümumilikdə götürdükdə kommersiya bankları Mərkəzi Bankın cəmiyyətə açdığı qollarıdır. Mərkəzi Bankın nəzarəti olmadan kommersiya bankları fəaliyyət göstərə bilməzlər. Bu fəaliyyətdə qarşılıqlı şəraitdə nəzərdə tutulur ki, həm Mərkəzi Bank həm də kommersiya bankları çalışır.

## 2.3. Azərbaycan Respublikasında bank sektorunun müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi

Azərbaycanın iqtisadiyyatı yüksək inkişaf templərini saxlayaraq, dinamikasına görə dünya liderləri arasında özünə layiqli yer tutmaqdadır. Azərbaycan qlobal neft və qaz, eləcə də kommunikasiya layihələri vasitəsilə dünya iqtisadiyyatında özünə yer tapmışdır. Azərbaycanın strateji inkişaf yolunun təsbit olunması, bu istiqamətdə işlək mexanizmlərin formalaşdırılması, ümummilli həmrəyliyin bərqərar edilməsi, ümumiyyətlə məsələlərə təcrübəyə əsaslanan yeni innovativ yanaşmanın təsis edilməsi isə məhz Azərbaycanın Ümummilli lideri Heydər Əliyevə məxsus oldu. Azərbaycan Respublikasının Ulu öndəri Heydər Əliyev 1994-cü ildən başlayaraq təməlini qoyduğu və daha sonrakı illərdə uğurla reallaşdırdığı neft strategiyası və konsepsiyası müasir Azərbaycanın xarici iqtisadi yüksəlişinin təməllərini təşkil etdi. Bu təməllər Respublikaya kifayət qədər maliyyə və digər resurslar cəlb etdi. Azərbaycan dünya iqtisadi maraqlar və cəlb edici məkanlar siyahısında özünə yer etməyə başladı. Artıq vaxtilə köhnə idarə üsulu ilə bərbad vəziyyətə gətirilmiş iqtisadiyyat yeni nəticələr vermək üçün yeni bazislər əldə etdi. ’’Əsrin müqaviləsi” adlı uğurun reallaşması müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını qoyan və Heydər Əliyev

tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsini başlıca təzahürüdür. Yəni, neft strategiyası bütün yeniliklərin üzərində bərqərar edildiyi bir platformaya çevrildi. Azərbaycan Respublikası iqtisadiyyatının gücləndirilməsi məqsədi ilə ölkənin birinci dərəcəli ehtiyatında məqsədli bir şəkildə istifadə edilməyə başlandı.

Heydər Əliyevin apardığı siyasət Azərbaycanın nüfuzunu artırmaqla, onun iqtisadiyyatını Cənubi Qafqaz regionunda aparıcı yerə keçirməklə yanaşı, ölkənin universal, regional və digər xassəli beynəlxalq iqtisadi və siyasi qurumlara, təşkilatlara və dünya iqtisadiyyatının ölkəmiz üçün ənənəvi və qeyri-ənənəvi sahələrinə inteqrasiyasını gücləndirdi. Azərbaycanda aparılan islahatlar və ölkənin iqtisadi qüdrətinin artırılması onun xarici iqtisadi fəaliyyətini gücləndirdi, dövlətin xarici ticarət əməliyyatlarında tərəfdaşlarının sayını artırdı. Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin inkişafı, onları tənzimləyən metodların yeniləşdirilməsi, eləcə də beynəlxalq iqtisadi fəaliyyəti reallaşdıran qanunvericilik bazasında islahatların gücləndirilməsi ilə müşayiət olundu. Dövlət müstəqilliyinin bərpasının ardından ötən qısa tarixi dövrdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasəti və güclü fəaliyyətləri nəticəsində, keşməkeşli şərtlərə baxmayaraq, Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsi və beynəlxalq təsərrüfat sistemınə inteqrasiya etməsi sahəsində çox böyük nailiyyətlər əldə etmişdir. Ən vacib nailiyyət isə odur ki, bu dövrdə Azərbaycanda aparılan müstəqil quruculuq prosesində iqtisadi islahatlar və inkişafın mahiyyət etibarilə yeni bir model - Azərbaycan modeli yaradılmışdır. Azərbaycan modeli onun sübutu idi ki, milyonluq qaçqın ordusuna, itirmiş ərazilərin çoxluğuna, beynəlxalq miqyasda ölkəni sevməyənlərin ara-sıra etdikləri manipulyasiyalara baxmayaraq iqtisadi inkişafı təmin etmək, ölkəni dünya ölkələri arasında inkişaf templərinə görə aparıcılar sırasına çıxarmaq mümkündür. Ümummilli Liderin qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinə yönəlmiş siyasəti 2003-cil ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev tərəfindən uğurla davam

etdirildi. İnvestorların və iş adamlarının fəaliyyəti qarşısında süni maneələrin aradan qaldırılması üçün onun tərəfindən iqtisadiyyatın bir çox sahələrində bir pəncərə sisteminin tətbiqinə başlandı.

İqtisadi potensialdan bir qədər də hərtərəfli istifadə edilməsi, iqtisadi infrastrukturun inkişıll səviyyəsinin artırılması, rəqabət qabiliyyətinin yüksəldilməsi müasir tələblərə uyğun olanıq intensivliyini itirməməlidir. Buna görə də, istehsal güclərinin inkişaf səviyyəsi, istehsalın texnoloji səviyyəsi və həyat səviyyəsi baxımından yüksək inkişaf etmiş ölkələrlə tam eyni səviyyəyə qalxımıq üçün dövlətimiz tərəfindən sistemli iqtisadi siyasət reallaşdırılır.

Ölkə iqtisadiyyatının son iki ilinin inkişaf xüsusiyyətlərini nəzərdən keçirdikdə görülən işlərin sistemli və konseptual mahiyyəti özünü təsdiq edir. Enerji daşıyıcılarının dünya bazarlarında qiymətinin əvvəlki illə müqayisədə azalması prosesinin daha da sürətlənməsi, dünyanın ikinci iqtisadiyyatı hesab edilən Çində ÜDM-in real artım tempinin əvvəlki dövrlə müqayisədə aşağı düşməsi, ölkələr arasında gedən “valyuta müharibələri”nin yeni müstəviyə keçməsi və ABŞ-da sərt, bir sıra ölkələrdə yumşaq monetar siyasətin tətbiqi 2015-ci ildə iqtisadi proseslərin dinamik dəyişməsinə səbəb olmaqla dünya iqtisadiyyatını hesabat dövründə xarakterizə edən əsas amillər olmuşdur. 2015-ci ildə dollar ifadəsində ÜDM 52969,6 mln. ABŞ dolları təşkil etmişdir. 2014-cü illə müqayisədə 22265,1 mln. ABŞ dolları nisbətində azalma həm ÜDM-in nominal ifadədə azalması, həm də manatın ABŞ dollarına nisbətdə ölkədə aparılan devalvasiyası ilə bağlı olmuşdur. Neft sektoru üzrə 2015-ci ildə hasilatın həcmi 40615,6 mln. ton proqnozlaşdırılsa da, faktiki rəqəm, DSK- nın məlumatlarına görə, 41689,0 mln. ton (ARDNŞ-in məlumatlarına görə 41586 mln. tonl9) təşkil etmişdir. Neftin qiymətinin aşağı düşməsinə və proqnozla müqayisədə istehsal həcminin artımla icra olunmasına baxmayaraq hesabat ilində ÜDM-in neft sektoru üzrə azalması müşahidə olunmuşdur. Belə ki, neft sektorunun ÜDM-də payı 2014-cü il üçün 38,7% səviyyəsindən aşağı düşərək 2015-ci ildə 30,7%-ə bərabər olmuşdur. Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 2015-ci ildəki sosial-iqtisadi inkişafının nəticələrinə və önündə duran vəzifələrə əsaslanan iclasında AR-nın Prezidenti Möhtərəm cənab İlham Əliyev öz giriş nitqində qeyd etmişdir: "Ümumilikdə, ÜDM-in strukturu müsbət istiqamətdə dəyişir. Qeyri-neft sektorunun çəkisi artır. Ancaq bu asılılığı minimum dərəcəyə çatdırmalıyıq ki, gələcək dövrlərdə neftin qiymətindən astlı olmayaq. Vəzifə bundan ibarətdir. Bildirirəm ki, düşünülən strategiya, sərgin iş nəticəsində buna nail ola biləcəyik". Qeyd edilməlidir ki, qeyri-neft sektorunun payı, əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə bir qədər də yüksələrək 69,3% təşkil etmişdir [6, s. 8].

2016-cı ildə dekabrın 1-nə ölkənin bank və ya bank olmayan kredit şirkətlərinin kredit portfeli yerli valyuta ekvivalentində 16 milyard 275,5 milyon manata enib. Kredit portfeli 2015-ci ildə dekabrın 1-i ilə müqayisə edildikdə 13,2 faiz enib. Ödəmə tarixi ötmüş kreditlərin miqdarı bütöv kredit portfelinin 8,9 faizinə bərabər olub. Əhalinin banklarda olan əmanətlərinin yerli valyuta ekvivalentində dəyəri 2016-cı ildə dekabrın 1-nə 7 milyard 605,8 milyon manat olub. 2016-cı il üçün əhalinin hər bir nəfərinə düşən ÜDM 6223,8 manat olub. 2016-cı ildə isə yanvar və noyabr aylarında muzdla çalışanların orta ayda nominal əməkhaqqı 2015-ci ildə uyğun dövr ilə müqayisə etdikdə 7 faiz çoxalaraq 494,3 manat olub. 2016-cı ildə isə öncəki illə müqayisə etdikdə əhalinin gəlirləri nominal şəkildə 8,7 faiz artıb. Sənaye istehsalı 0,4 faiz azalıb, kənd təsərrüfatının bütöv məhsulu 2,6 faiz artıb, ölkəyə 14,9 milyard manat dəyərində, və yaxud 2015-ci ildiləəki müqayisə etdikdə 26,1 faiz az vəsait yönəldilib. Öncəki illə müqayisə etdikdə yük daşınması 0,1 faiz enib, sərnişinlərin daşınması isə 2 faiz artıb. 2015-ci ildə ki ilə müqayisə etdikdə 2016-cı ildə olan informasiya xidmətlərinin və rabitə xidmətlərinin qiyməti 4,5 faiz çoxalıb, bu sektorda əldə olunan gəlirin 80,5 faizi qeyri-dövlət sahəsinin payına düşüb (5, s.6). 2016-cı ildə olan dövlət büdcəsinə 17 milyard 501,2 milyon manat vəsait daxil edilib, büdcədən isə 17 milyard 742,4 milyon manat vəsait xərclənilib, büdcənin icrasında əmələ gəlmiş 241,2 milyon

manatlıq kəsir ÜDM-in 0,4 faizi səviyyəsində olub.

Beləliklə, bu proseslərin yekununda hesab edirik ki, həmin tədbirlər dövlət proqramında nəzərdə tutulduğu kimi reallaşaraq investisiyaların ixrac istiqamətli sektorlara axını da arta bilər.

## 2.4. Azərbaycan Respublikasında bank sektorunun perspektiv inkişaf istiqamətləri

Mərkəzi Bank məqsədlərinə nail olmaqdan ötrü dövlətin valyuta strategiyasını müəyyən edir və reallaşdırır. Valyuta strategiyası - dünya iqtisadi inteqrasiya əməliyyatları çərçivəsində iqtisadiyyatın daxili və xarici dinamik tarazlığını təmin etmək, beynəlxalq olan ödəmələri müvafiq sistem içində reallaşdırmaq və tədiyyə balansını tənzimləmək məqsədi ilə ölkənin cari və siyasi məqsədlərinə əsasən monetar orqanların reallaşdırdığı tədbirlərin toplusudur. Valyuta strategiyası - ölkənin daxili və xarici iqtisadi məsələlərinin həllinə yönəlmiş, valyuta tənzimlənməsi və nəzarət edilməsi, valyuta bazarı, qızıl-valyuta ehtiyatlarından sərfəli istifadəsi, beynəlxalq maliyyə təşkilatlarında iştirak probleminə aydınlıq, valyutanın dövriyyəsi, ölkədaxili və ölkəxarici valyuta məsələlərini sistemli şəkildə təhlil edilməsi kimi vacib problemləri özündə birləşdirir. Valyuta strategiyasının yön və formaları ölkənin valyuta-iqtisadi halı və dünya iqtisadiyyatı sektorunda gedən dəyişikliklərə aslı olaraq tarazlanır. Valyuta strategiyasının sağlam və səmərəli şəkildə tətbiq edilməsi ölkənin iqtisadi qorunmasının əsas təminatıdır. Valyuta strategiyasının yönləri: iqtisadiyyatda dollarlaşmanın önünü almaq; valyutaya nəzarəti; valyuta bazarının ən müvafiq strukturu və qızıl-valyuta ehtiyatları diversifikasiyası; xarici olan borcun idarə edilməsi; valyuta rezervlərinin toplusu; daxili investisiya ehtiyacının ödəmək məqsədi ilə xarici investisiyanın özünə cəlbi; Kapitalın çıxmasına məhdudiyyət; xarici olan rəqabətə qarşı milli istehsalçıların qorunması (idxalın əvəzləyici istehsalın stimullaşdırma

strategiyası); valyuta böhranının qarşısında duracaq tədbirlər; valyuta məzənnə müvazinətinin təmin edilməsi; tədiyyə balansının müvazinəti; ixracatçılara yönəlmiş stimullaşdırma strategiyası; çirkli pulların silinməsinə qarşı olan mübarizə; deviz strategiyası (valyutanin müdaxiləsi) və diskont strategiyası

Valyuta strategiyasını reallaşdırma sırasında onun valyuta bazarının fəaliyyətinə olan təsiri iqtisadi göstəricilərin qarşılıqlı əlaqəsinin monitorinqinin aparılması mühümdür: valyuta-məzənnə; qızıl- valyuta ehtiyatları; tədiyyə balansının saldosu; daxili pul tədavülünün miqdarı və dollarlaşma səviyyəsi; valyuta liberallaşma səviyyəsi.

Valyuta strategiyası xarici valyutaya olan tələb əsasında və təklif əsasında meydana gəlir. Valyutaya olan tələbə və təklifə təsir edən tədbirləri bir neçə qrup kateqoriyasına ayırmaq olar:

1. Maliyyə (Mərkəzi bankın emissiya strategiyası, həmçinin MB valyuta bazarında iştirak etməsi; büdcənin icrası ilə bağlı hökumətin fəaliyyəti, qeyri-rezidentlərə açıq olan kreditin xətti, büdcənin hesablarında qalıqların idarə edilməsi və s.);
2. iqtisadi (ölkənin ixracat gücünün inkişafı və ya idxalı əvəzedici sektorların inkişafı);
3. inzibati (valyutaya nəzarət və tənzimlənməsi kontekstində birbaş (kvota) və dolayı (gömrük məhdudiyyəti);
4. sosial və psixoloji (dövlətin informasiya xarakterli fəaliyyəti, iqtisadi vahidlərin valyuta sektorunda gedən hadisələrə yönəlmiş aydınlıq gətirmə strategiyası).

Valyuta strategiyasının həyata keçirilmiş yekunlarının tam iqtisadi-statistik görünüşünü ölkənin cari tədiyyə balansında rast gəlmək olar.

Mərkəzi Bankı manatın xarici olan valyutalara nisbətən rəsmi məzənnəsini mütəmadi şəkildə müəyyənləşdirib elan edir. Valyuta bazarında məzənnənin iki rolu var: daxili iqtisadi şərtləri və birdə xarici iqtisadi şərtləri dəyərləndirək, iki qeyd edilən arasında müvazinəti qurmaqdır və valyuta

məzənnəsi də qiymət qəbul olunduğuna görə, o vaxt valyuta təklif və tələbini gerçək dərəcə tarazlığında saxlamaq gərəkdir. Məzənnə daxilində qiymətlə xarici qiymət arasında olan əlaqəni əmələ gətirən nadir vasitədir və ən mühüm makroiqtisadi göstəricidən biridir.

Məzənnə valyuta istehsal edən sahələrdə valyuta istehlak edən sektor arasında müvazinəti qoruyur və eyni qayda da ixrac sektoru və idxal sektoru arasında stimullaşdırma və qorumaçılıq strategiyası reallaşdırır.

Məzənnə strategiyası - ölkənin ixracat gücünə və investisiya şəraitinə təsir edən ən vacib formalaşdırma tədbirlər toplusudur (məs: tədiyyə balansının tənzim olunması, ölkənin qızıl- valyuta ehtiyatları). Valyutanın məzənnəsinə təsir edən göstəricilər: daxili və xarici qiymətin səviyyəsi (SGP nəzəriyyəsi);xarici ticarət balansına dair statistik göstəricilər;beynəlxalq kapital hərəkətində olan dəyişikliklər (məs. ölkənin daxilində faiz dərəcələrinin çoxalması: özünün növbəsində milli pul vahidinin dəyərini çoxaldır); tədiyyə balansının ayrı-ayrı hissələrində dəyişiklik (ixracatın artımı, milli valyutanın möhkəmlənməsinə, bu isə öz sırasında ölkənin beynəlxalq aləmdə rəqabət qabiliyyətliyinə mənfi təsir edir), dövlət büdcəsinə dair göstəricilər; xarici borcun və faiz ödəmələri; dövlət büdcəsinə dair göstəricilər, xarici borcun və faiz ödəmələri; pulun miqdarında olan dəyişmələr; Mərkəzi bankın qızıl- valyuta ehtiyatlarının miqdarı; beynəlxalq qurumların ölkə iqtisadiyyatına əlaqəli dəyərləndirmə notları və s.

AR-ı Mərkəzi Bankı manatın sabitliyini təmin etmək üçün xarici valyutanın alqısına və satqısına əsasən əməliyyatlar aparmaqla valyuta bazarına müdaxilə edə və satışın məzənnəsinin alışın məzənnəsindən uzaqlaşmasına hədd qoya bilər.

Bank sistemi əhalinin sosial problemlərinə bir başa təsir edən sistem kimi bu təsiri kreditlər, depozit və digər maliyyə əməliyyatları vasitəsilə həyata keçirir. Azərbaycanda istehlak kreditləşməsi sürətlə artır. Aparılan araşdırmalar

göstərir ki, orta statistik vətəndaş öz gəlirinin böyük hissəsini banklara kredit formasında ödəməli olur. (cədvəl 1)

Cədvəl 1. **Əhali gəlirləri və istehlak kreditlərinin müqayisəsi**

| Ölkə | Əhali sayı | Kredit alanların faizi | Kredit görürənlər | İstehlak kreditləri, $ | Orta aylıq əmək haqqı, $ | Adambaşına düşən kredit həcmi, $ | Adambaş ına düşən kredit həcminin orta aylıq əmək haqqına nisbəti |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 9477100 | 24,1 | 2285226 | 6799150000 | 423 | 423 | 7,03 |
| Rusiya | 143666900 | 27,4 | 39400000 | 133517166451 | 555 | 555 | 6,11 |
| Ukrayna | 42818300 | 23,3 | 9963738 | 6722000000 | 200 | 200 | 3,48 |

Göründüyü kimi bugün Azərbaycanda borcalanların banklara borclu olduğu pulun miqdarı orta aylıq əmək haqqından 7dəfə çoxdur.

2013-cü ilin fevral ayında Mərkəzi Bank vaxtında istehlak kreditləri bazarının təhlükəli həddi keçməsinin qarşısını alaraq kommersiya banklarının ticarət obyektlərindən çıxarılması barədə qərar qəbul etdi. Lakin bankların yerini həmən dəqiqə fərdi kreditorlar tutdu.

Fərdi kreditorlar- o fiziki və ya hüquqi şəxslərdir ki, onların kredit vermə lisenziyaları mövcud deyil. Onlar yerindəcə öz adlarından ya kredit müqaviləsi və ya uzun müüdətli ödəniş müqaviləsi bağlayırlar.

Nəticədə Respublikamızda artıq 2 ildir ki sələmçiliklə məşğul olan bir təşkilat mövcuddur ki, onlar satış yerlərində əhali istehlakı üçün lazım olan malların satışı ilə məşğuldurlar. Nəticədə bu işdə həm də aqressiv reklam kompaniyaları da olur.

Hazırki dövrdə də praktiki olaraq bütün mağazalarda kreditlə və ya müddətli şəkildə satış mövcuddur ki bunlar da kreditin gizli forması sayılır, və bu bank krediti deyil. Bu cür "kredit bum"unun səbəbi bizim fikrimizcə aşağıdakılardı.

Birincisi, əlbəttə ki, bu məhsulu bugün almaq istəyindən irəli gəlir. Alıcı bunun üçün gözləmək istəmir.

İkincisi, əlverişli kredit almaq. Araşdırmalar göstərir ki, fərdi kreditora kredit vermək üçün kredit alan şəxsin şəxsiyyətini təsdiq vəsiqə də kifayət edir. Kreditlər alıcının qeyri-rəsmi gəlirlərinə əsasən verilir. Və bu cür krediti praktiki olaraq hər kəs əldə edə bilir. Banklara isə öz növbəsində bunun üçün çoxlu miqdarda sənədlər tələb olunur və bu imkan verir ki bank borcalan barədə məlumat əldə etsin. Buna görə də banklar borcalanın üzərinə artıq kredit yükünün düşməsini əngəlləyirlər.

Bununla bərabər bankları fərdi kreditorlardan fərqli olaraq kredit müddətini uzatmağa çalışırlar ki, bu da kredit götürənin aylıq ödənişinin azalmasına və bununla bərabər yükün azalmasına səbəb olur. Amma fərdi kreditorun iş prinsipi böyük miqdarda pulu qısa müddətə kreditə verməkdir ki bu da banklardan fərqi olaraq qanunvericiliklə nəzarət edilmir.

Üçüncüsü fərdi kreditorlar müştəriləri cəlb etmək üçün müxtəlif üsullardan istifadə edirlər, məsələn “0,0,12” (faizsiz və ilkin ödənişsiz 12 aylıq kredit), hansında ki istehlakçılar heç təsəvvür belə etmirlər ki faiz də , komissiyon da artıq məhsulun qiymətinə əlavə edilib. Bir çox hallarda məhsulların üzərində malın qiyməti yox aylıq ödənişi olur ki bu da məlumatı olmayan istehlakçıları çaşdırır. Mağazalarda fəaliyyət göstərən fərdi kreditorlar çox vaxt müştəriləri aşağı qiymətlərlə deyil daha rahat kredit şərtləri ilə cəlb edirlər. Bütün bunlar Respublika iqtisadiyyatında sağlam rəqabəti öldürür və qiymətlərin artımına səbəb olur.

Dördüncüsü isə əhalinin kreditlərlə bağlı zəif məlumatlandırılması və həmçinin onların öz konstitutsiyon hüquqlarını bilməməklərindən irəli gəlir. Sadəlövh istehlakçılar çox sadə şəkildə onlara necə böyük borc yükü yükləndiyini anlamırlar. Fərdi kreditor və borcalan arasında bağlanılan sənəd daha çox borc sənədinə bənzəyir hansı ki, ödəniş qrafiki və gecikmələrə görə cərimələrlə doludur. Borcalanın hüququ nə müqavilə ilə təsbit olunur nə də

dövlət tərəfindən qorunur. Pulların ödənilməsində fərdi kreditorlar çox vaxt şantaj və hədə-qorxudan istifadə edirlər.

Amma bizim fikrimizcə fərdi kreditorların fəaliyyətinin əsas problemi onların Mərkəzləşdirilmiş kredit reyestri tərəfindən qeydə alınmamasından irəli gəlir.

Azərbaycan Respublikasında 2005-ci ildən etibarən “Mərkəzləşdirilmiş kredit reyestri xidməti” fəaliyyət göstərməyə başlamışdır. Hal-hazırda buraya ölkənin kommersiya banklarından və bank olmayan kredit təşkilatlarından daxil olan məlumatlar əsasında dövlət əhalinin borc yükünün artmasının qarşısını alır və bunu tənzimləyir.

Mövcud faktları nəzərə alaraq nəzərinizə fərdi kreditorların fəaliyyətinin nəticəsində ortaya çıxan aşağıdakı problemləri çatdıraq:

1) Sürətlə artan borc bazarı və bunun dövlətdən gözlədilməsi və Vergilər Nazirliyinin nəzarətində olmaması;
2) Bunlarla bağlı məlumatların MKR-nə çatdırılması həm bankalrın həm də tənzimləyən dövlət orqanlarının yanılmasına səbəb olur (maliyyə sisteminə ziyan dəyir);
3) Fərdi kreditorların komissiyon və faiz dərəcələrini məhsulun qiymətinə əlavə etmələri malın və həmçinin Respublikamızda qiymətlərin bahalaşmasına səbəb olur hansı ki, bununla bağlı Dövlət başçısı dəfələrlə tədbir görülməsi barədə dövlət orqanlarına müvafiq tapşırıqlar verib;
4) Fərdi kreditorların kredit verməsi nə Mərkəzi Bank nə də Vergilər Nazirliyi tərəfindən tənzimlənmədiyi və nəzarət edilmədiyi üçün nətcədə əhaliyə böyük miqdarda kredit yükü düşür;
5) Fərdi kreditor müqaviləsi bank kreditlərindən fərqli olaraq borcalanın hüquqları əks etdirilmir. Fakt üçün borcalan üzərində yalnız ödənişlərin göstərildiyi sənəd imzalayır;

6) Ödənişlərin gecikməsi halda və ya ödənişlərin olmaması halında fərdi kreditorların almaqları olduqları əhali borcları dövlət tərəfindən tənzimlənmir. Yerini şantaj və hədə-qorxulara verir. Borcalanın hüquqları heç cür qorunmur.

2014-cü il

Cədvəl 2.

| Bankın adı | Kredit faizləri | Ümumi kreditin həcmi (min manatla ) | Vaxtı keçmiş kreditlərin həcmi (min manatla ) |
|---|---|---|---|
| Kapital Bank | 26 | 1,050,817 | – |
| Access Bank | 27 | 840,427 | 21,660 |
| Uni Bank | 27 | 783,399 | 52,795 |
| Bank of Baku | 28 | 599,412 | 83,007 |
| AFB Bank | 27 | 422,480 | 10,429 |
| Ata Bank | 25 | 499,418 | 17,714 |
| AGBank | 29 | 354,767 | 55,699 |
| AmrahBank | 28 | 123,916 | 11,569 |

Yuxarıdakı cədvəl 2-də ölkəmizin 8 kommersiya bankının (Kapital Bank, Access Bank, Ata Bank, AG Bank, AFB Bank, Amrah Bank, Unibank, Bank of Baku) istehlak kreditləri üzrə orta faiz dərəcələri müəyyən edilmiş və ölkə üzrə orta istehlak krediti faizi hesablanmışdır ki, bu göstərici də 27,16% təşkil edir.

Qeyd edilən bankların illik və rüblük hesabatlarından əldə edilən məlumatlara əsasən vaxtı keçmiş kreditlərin ümumi kredit portfelindəki həcmi 2,6%-dən 15,7%-ə qədər dəyişdiyi müəyyən olunmuşdur.

Cədvəl 3. **Ümumi kreditlərin tərkibində vaxtı keçmiş kreditlərin və ev təsərrüfatlarına qoyulan kreditlərin həcmi**

| İllər | Ümumi kreditlərin həcmi | Vaxtı keçmiş kreditlər | | Ev təsərrüfatlarına qoyulan kreditlər | |
|---|---|---|---|---|---|
| | | Həcmi | faiz | Həcmi | faiz |
| 2011 | 8407,5 | 303,5 | 3,6 | 2328,9 | 27,7 |
| 2012 | 9163,4 | 492,9 | 5,4 | 2700,8 | 29,5 |
| 2013 | 9850,3 | 633,8 | 6,4 | 3315,0 | 33,7 |
| 2014 | 12243,7 | 748,8 | 6,1 | 4316,7 | 35,3 |
| 2015 | 15422,9 | 792,8 | 5,1 | 6214,7 | 40,3 |
| 2016 | 18542,6 | 976,3 | 5,3 | 7731,8 | 44,0 |
| 2017 | 20595,5 | 1256,6 | 6,1 | 8197,7 | 39,8 |

Bütün bunlar əhali gəlirlərinin artımına və istehlak kreditlərinə minimum məbləğ həddinin qoyulması ilə faiz dərəcələrinin aşağı salınmasına ehtiyacın olduğunu söyləməyə imkan verir.

Bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına, onun bazar tipli iqtisadi və sosial, elmi-texniki və intellektual potensialının daha sürətlə artımına və bu artımın sosial iqtisadi nəticələrini təmin etmək məqsədilə maliyyə potensialına, onun istifadəsinin səmərəli yollarına ehtiyac yaranır. Bu məqsədlə Azərbaycan Respublikasının maliyyə siyasətinin əsas istiqamətləri və onun həlli yolları, nəzəri və praktiki əhəmiyyət kəsb etməlidir. Maliyyə siyasətinin konseptual əsaslarını yaratmaq, onun mexanizmlərini təkmilləşdirmək, iqtisadi təhlükəsizlik və maddi rifahın yüksəldilməsinin konseptual nəticələridir. Dövlətin iqtisadi rolu sahibkarlığın

inkişafı və sosial müdafiə tədbirləri maliyyə siyasətinin davamlığından, ümumdünya inteqrasiya sistemində mənafelərinin uzlaşmasından və daxili resursların iqtisadi dövriyyəyə cəlb edilməsi məqsədindən meydana çıxır. Maliyyə siyasətinin düzgün tərtibi, işlənməsi, onun səmərəli təşkili, pul-kredit vergi, sosial müdafiə və təminat mexanizmlərinin əsaslandırılması ilə reallaşır. Maliyyə siyasəti əhalinin gəlirlərinin, istehlak qabiliyyətinin, əmanətlərini təminat yolu ilə inkişafa stimul yaradır.

Maliyyə siyasəti ölkədə sosial iqtisadi inkişafın, investisiyanın, pul-kredit siyasətinin və əhalinin sosial müdafiəsini təmin edən dəyər göstəricilərinin formalaşması, təşkili, idarə olunması onun artırılmasının əsas yollarının məcmusunu əhatə edir. Maliyyə resursları ölkədə sosial iqtisadi inkişafın ehtiyaclarını və əhali tələbatının ödənilməsinin artırılmasına yönəldilən pul vəsaitlərinin mənbəyi və onlardan istifadənin səmərəli yollarını əhatə edir. Maliyyə siyasətinin səmərəliliyi: iqtisadi inkişafında dövlətin iqtisadi suverenliyinin və əhalinin rifahının sabitliyinin təminat dərəcəsi ilə ölçülür.

Maliyyə siyasəti, elmi əsaslarla səmərəlilik, sosial ədalət, qütbləşmənin azalması, təşəbbüskarlıq, maraq prinsipi əsasında qurulur. Bu prinsipləri həyata keçirən iqtisadi və sosial mexanizmlərə investisiyanın təşviqi, dövlət büdcəsinin prioritetliyi, antiinhisar fəaliyyəti gəlirlərin artırılmasına stimul yaratmaq və sosial təminatını təmin edən mexanizmlər vasitəsilə reallaşır. Bu mexanizmlərə ÜDM, onun dəyəri dövlət büdcəsinin gəlirləri və xərcləri, investisiyanın sahə və ərazi quruluşu, həmçinin əmək haqqı sistemi, sahibkarlıq gəlirləri aiddir.

# NƏTİCƏ

Respublikamızın hazırkı bank sistemində, konkret olaraq valyuta sistemində müəyyən problemlər mövcuddur. Bunun ilkin səbəbi dünyada baş vermiş qlobal iqtisadi dəyişikliklər, xüsusilə də dünya bazarlarında neftin qiymətinin kəskin şəkildə düşməsi və nəticədə ölkəmizin milli valyutasının xarici valyuta, əsasən də dollar və avro qarşısında devalvasiyasıdır. 2015-ci ilin fevral və dekabr aylarında milli valyutamızın məzənnəsində baş vermiş dəyişikliklərdən ən çox əziyyət çəkən də elə bank sektoru oldu. Əsas problem xarici valyutada verilmiş kreditlərin qaytarılmasında kütləvi ləngimələr, eyni zamanda bankların xarici valyutada aldıqları borcların qaytarılması ilə bağlı idi. Digər bir problem də əhalinin xarici valyutada banklara yerləşdirdiyi əmanətlərin qaytarılması ilə bağlı meydana çıxmışdı. Fevral ayının 3-də 2016-cı il tarixdə AR Prezidentinin Fərmanı ilə AR Maliyyə Bazarlarına Nəzarət Palatası təsis edildi. Ölkənin maliyyə sisteminin olduğundan çox sabit və dayanıqlı, rəqabət qabiliyyətliliyinin isə daha yuxarı olmasına görə maliyyə bazarlarının fəaliyyətinin sərfəli formada təmin edilməsi, eləcə də kreditorların, investorların və sığorta edilənlərin hüquqlarının mühafizəsi, maliyyə sahəsinin dayanıqlılığını təmin edilməsi və bu sektorda nəzarət mexanizmlərini inkişaf etdirmək məqsədi ilə bu struktur yaradıldı. Ayrıca təşkilati mexanizm yaradılsa da, bu istiqamətdə elmi-nəzəri araşdırmaların aparılmasına və effektiv təkliflərin irəli sürülməsinə zərurət vardır, bu baxımdan dissertasiya işində müvafiq məsələlərlə bağlı araşdırma xüsusi aktuallıq kəsb edir.

AR təbii sərvətlərlə zəngin olan və neft sektoru inkişaf etmiş bir dövlətdir. Respublikamızda hasilat sənayesi üzrə neft və təbii qaz dominantlıq edir, bu isə ölkənin ÜDM-nin 50%-dən çox hissəsini təşkil edir. Neft və təbii qazla yanaşı, Respublikamızda qeyri-neft sektorunun inkişafı da öz bəhrəsini verir. Ölkəmiz ixrac baxımından neft qiymətlərindən asılıdır. Neft və qaz ixracı 90 faiz təşkil edir. Hazırda neft və qazdan asıldığı azaltmaq üçün özəlləşdirmə, iqtisadiyyatın diversifikasiyası, biznes mühitinin inkişafı da daxil olmaqla

geniş miqyaslı islahatlar aparılır. Eyni zamanda, neft qiymətinin düşməsi texnologiyaya, kənd təsərrüfatına, qeyri-neft sektoruna daha çox yatırım etmək imkanı verdi. AR yaxın illərdə neft və qaz qiymətlərindən asıldığı tamamilə aradan qaldıracaqdır. AR Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, "Azərbaycanın post-neft dövrü artıq başlayıb. Ona görə də, biz dünya bazarında tək neft və qaz satan ölkə kimi deyil, başqa məhsullar satan ölkə kimi də özümüzü tapmalıyıq. Həm neft, həm də qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biri ölkədə əlverişli biznes mühitinin yaradılmasıdır. "Əlverişli biznes mühiti" anlayışının əsasını təşkil edən əsas komponentlərdən biri sabit bank sektorudur. AR-də reallaşan iqtisadi strategiyada səmərəli biznes mühiti və investisiya mühiti yalatmaqla xarici və daxili investisiyaların cəlb olunması və qeyri-neft sahəsinin möhkəm inkişaf etməsinə nail olunması vacib aktuallıq kəsb edir. Qeyri-neft sahəsinin hərtərəfli, güclü və səmərəli inkişafının təmin olunmasının ən vacib şərtlərindən biri isə bank sektorunun inkişaf etdirilməsi, bankların fəaliyyətində effektivliyinin artırılmasıdır.

Ölkəmizdə bankların əsas fəaliyyət istiqaməti kreditlərin verilməsidir. Banklar kommersiya hüquqi şəxslərin bir növü olduğundan əsas məqsədi gəlir əldə etməkdir, hazırkı şəraitdə bankların əsas gəlirləri də kreditləşmədən formalaşır. Lakin verilən kreditlər lazımi səviyyədə geri qayıtmadıqda, bankın gəliri azalır və bağlanmaq səviyyəsinə qədər gəlib çıxır. Hazırda Respublikamızda 30 bank fəaliyyət göstərir. 2014-cü ildə bu rəqəm 44, 2018-də 37 olmuşdur. Bankların bağlanma səbəbləri arasında verilən kreditlərin qaytarılmaması səbəbi üstünlük təşkil edir. Mövcud vəziyyətdə ciddi dəyişikliklərə zərurət vardır. ABŞ, xüsusilə zəngin bank təcrübəsinə malik Fransa, İtaliya, Almaniya və Böyük Britaniya kimi Avropa ölkələrində banklar kredit əməliyyatları ilə yanaşı, qiymətli kağızlarla əməliyyatlar, pul köçürmələri, biznes tərəfdaşlığı, investisiya əməliyyatları, beynəlxalq hesablaşmalar, onlayn ödənişlər və s. bank əməliyyatlarından da xeyli gəlir

əldə edir. Respublikamızda qeyd edilən əməliyyatlar hələlik qənaətbəxş səviyyədə deyildir. Bu problemin səbəblərindən biri də milli bank qanunvericiliyimizdə qeyd edilən məsələlərin ətraflı şəkildə tənzimlənməməsidir, daha dəqiq desək müvafiq əməliyyatlar normativ hüquqi aktlarda ümumi şəkildə öz təsbitini tapmışdır, lakin işləmə mexanizmləri müəyyən edilməmişdir. Buna görə də, müasir bank əməliyyatları ilə bağlı beynəlxalq hüquq normalarının milli qanunvericiliyə tətbiqi xüsusi aktuallıq kəsb edir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Azərbaycan Respublikası Hesablama Palatasının RƏYİ” BAKI -2016,460 s.
2. “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbayca Respublikasının qanunu. (10 dekabr 2004-cü il )
3. “Banklar haqqında” Azərbaycan Respublikasının qanunu(l 6 yanvar 2004- cü il)
4. İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.
5. Bank işi sferasında dövlətdaxili qanunvericilik və beynəlxalq hüquq normalarının qarşılıqlı əlaqələrinin nəzəri və praktiki məsələləri. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. I Cild. Bakı, 2016, s. 193-197.
6. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı. Elm, 2005.
7. Axundov Ş. Ə. , Axundov M. Ə. Bazar iqtisadiyyatının əsasları. Bakı, 2001.
8. Azərbaycan iqtisadiyyatı / I. H. Alıyev və S. A. Ibadovun redaktəsi ilə Bakı, 1998, 400 s.
9. Azərbaycan Respublikasında rəqabətin qorunması və təbii inhisarların tənzimlənməsi. Qanunlar, analitik materiallar, normativ sənədlər. Bakı, 2000.
10. Azərbaycanın statistik göstəriciləri 2005-2017-ci illər.

11. Abdullayev Ş. Azərbaycanın bank sistemi və ya bank resuslarının idarə olunması. Bakı- 2001.
12. Bağırov D. A. Vergi auditi. Bakı, 1999.
13. C.Kərimov, A.Orucov, H.İsrafilov. Dünya iqtisadiyyatı. Dərslik. Bakı, 2007.
14. Əliyev A. Ə. , Şəkərəliyev A. Ş. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2002.
15. G.Gənciyev. BİM: Müasir vəziyyət və inkişaf problemləri. Bakı, 2005.
16. Z.F.Məmmədov. Bank fəaliyyətinin əsasları. Bakı-2013
17. Pulsuz, İ, 2006, Makro İqtisadiyyat, Mahnı Nəşriyyatı, Bursa. S.534
18. Азербайджан. Переход к стабильному развитию. Региональные исследования Всемирного Банка. Всемирный Банк. Вашингтон, Округ Колумбия. 1993.
19. Всемирный Банк. Годовой отчет. Вашингтон, 2004.
20. И.Герчикова. Международные экономические организации: регулирование мирохозяйственных связей и предпринимательской деятельности. М., 2000.

**İnternet resursları**

21. http://papers.ssrn.com
22. http://m.apa.az
23. http://www.stat.gov
24. http://transparency.az
25. http://unec.edu.az